

## Vladimir Putin Mehriban Əliyevanı təbrik edib

*Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb. "Unikal" xəbər verir ki, təbrikdə deyilir:*

Səh.2

# UNİKAL

№31 (2116) 26 avqust 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru



## Cahangir Əsgərovun ailə şirkətindən müəmmalı qərar



Səh.2

## Tərəflər arasında növbəti görüş - "Zəngəzur dəhlizi" masada

## "Sil Vey Holdinq"ə daxil olan MMC niyə ləğv edilib?

*Yola salmaq üzrə olduğumuz həftə "Silk Vey Holdinq" MMC-yə daxil olan "Silk Vey Konnekt" MMC ləğv olunduğunu elan edib. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "Vergilər" qəzetində yerləşdirilən elana əsasən, kreditorlar 2 ay ərzində tələblərini Bakı şəhəri, Xəzər rayonu, Heydər Əliyev Beynəlxalq aeraportuna bildirə bilərlər. Xatırladaq ki, "Silk Vey Konnekt" 2018-ci ildə yaradılıb. Cəmi 4 il öncə təsis olunan bu şirkətin niyə ləğv edildiyi məlum deyil. Holdinq bu qərarının səbəblərini açıqlamayıb. "Unikal"ın araşdırması nəticəsində isə məlum olub ki, ötən ilin iyununda da "Silk Vey Holdinq"ə daxil olan iki şirkət ləğv edilib. Bunlar "Silk Vey East Aviaşirkəti" və...*

Səh.9

## "Monopoliya qiymətlərin aşağı düşməsinə imkan vermir"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Əli Məsimli "Unikal"a müsahibə verib. O, çörəyin, unun qiymətinin bahalaşmasından, maaş və pensiyaların artma ehtimalından, son illər ərzaq məhsullarının qiymətinin qalxmasından, manatın məzənnəsinin necə olacağından və s. məsələlərdən danışıb.*

Səh.4

## Rəsmi Bakıdan ABŞ-ın bu addımına sərt cavab



*"Amerika Birləşmiş Ştatlarının dövlət katibi Antoni Blinkenin Qafqaz danışıqları üzrə baş məsləhətçi vəzifəsinə Filip Rikerin təyin olunmasına dair mətbuat bəyanatında bölgədəki post-münaqişə reallığından uzaq yanaşmanın sərgilənməsi təəccüb doğurur".*

Səh.6

## Etibar Pirverdiyevə növbəti zərbə



*Bu günlərdə məlumat yayıldı ki, məşhur futbol ustası Şövkət Orduxanovun adını daşıyan Qusar şəhər stadionunda təmir-bərpa işlərinə başlanılıb. Qeyd edək ki, 1962-ci ildə inşa edilmiş Qusar şəhər stadionu, 1999-cu ildə "Şahdağ"futbol klubuna 99 il müddətinə icarəyə verilib. Qusar rayon gənclər və idman idarəsinin rəisi Emil Əmirmətov yerli KİV-ə bildirib ki...*

Səh.5

# Afət Şəbnəmi yalançı adlandırdı - YENİ QALMAQAL



***"Başladılar haqqımda "qara piar" aparmağa ki, xalqın gözündən salsınlar. Amma insanlar sağolsunlar ki, yalanlara uymadılar".***

"Unaikal" bizim.media-ya istinadən bildriir ki, bu sözləri Afət Fərmanqızı qonaq olduğu "Həmin Zaur" axşam şousunda deyib.

Sənətçi xanım həmkarı Şəbnəm Tovuzlu haqqında sərt sözlər deyib. O bildirib ki, Şəbnəmi məclisinə dəvət etsə də, gəlməmək üçün yalan uydurub. "Şəbnəm təsirə düşən insandır. iki dəfə onun məclisinə getmişəm. Vaxtımı və pulumu xərcləmişəm. Bir dəfə onu məclisə çağırdım, yalandan dedi ki, Moskvadadır. Moksvadasansa çıxart pasportunu göstər. O, Bakıda idi, amma gəlmədi. Gəlməməyinin səbəbi isə kimlərsə tərəfindən öyrədilməsi idi. Cəbhə, qruplaşma yaradıblar. Həmin gün Şəbnəm filan restoranda balıq yeməyə getmişdi. Mənə fotosunu atdılar. Sonra da orada olduğunu sosial şəbəkədə paylaşdı. Şəbnəmlə eyni eldənik (Tovuz - red.). Nə olur ki, belə edəndə?! Məni pisləyəndə nə olacaq ki? Gələ bilmirsə məclisə, gərək təbrikini yollayardı. Bu adam onu da etmədi. Borclu borclunun sağlığını istəyər".

# Vaqifdən Kərimə sərt sözlər: "Ona sənətkar demək günahdır"

***Müğənni Vaqif Şixəliyev həmkarı Kərim Abbasovu tənqid edib.***

Sənətçi bu haqda "Nahara az qala" verilişində deyib. O bildirib ki, Kərim yaxşı sənətçi deyil: "Kərim yaxşı rəqs edir, ritmi var. Dinamik insandır. Amma ona sənətkar demərəm. Sənətkar başqa məfhumdur. Kərimin əzbərdən heç bir mahnısını bilmirəm. Nə oxuyursa, özünə görə, özü üçün oxuyur. Ona sənətkar demək günahdır".



Vaqif Kərimin onun mahnısını oğurladığını söyləyib. O bildirib ki, ifaçı ondan buna görə halallıq da almayıb: "Bir mahnı yazdırırsan, baxırsan tez oxudular. Düzgün deyil, oxuyuramsa, baxıram başqası oxudu, ləzzət etmir. Buna mədəni oğurluq deyirlər. Elə mədəniyyət nə gəzir ki, üzür istəsin, desin, sən oxumusan. İnsanın mədəniyyəti olmalıdır ki, zəng edib halallıq alsın".



# Rəqqasə Fatimə xəstəxanalıq oldu

***Antalyada istirahətdə olan rəqqasə Fatimə Fətəliyevanın başına iş gəlib.***

Sənətçinin səhhəti pisləşib və xəstəxanaya yerləşdirilib. Fatimə həmin an çəkilən görüntüsünü yayımlayaraq ona göz dəydiyini vurğulayıb.

O, paylaşımına "Gözünüzü çəkin. O qədər qəribədir ki, sənin travman sənin günahın deyil. Ancaq sağalmağın üçün bütün məsuliyyət sənin əlindədir" qısa şərhini yazıb.

Qeyd edək ki, Fatimə bir neçə gün əvvəl İstanbulda əməliyyat olunmuşdu.

# Onlar şou-biznesin ən varlı ifaçılarıdır



***Əməkdar artist Səlim Abbasov şou-biznesin varlı müğənnilərinin adını açıqlayıb.***

Bu haqda "Maqazin plus" proqramında danışan skripka ifaçısı bunla bağlı sualları cavablandırıb.

"Şou-biznesdə bir neçə imkanlı şəxslər var: Ədalət Şükürov, Xəyyam Nisanov. Abbas Bağırovun da yaxşı imkanı var. Bir də Aşıq Əli Tapdıqoğlu" deyə, Səlim bildirib.

# İbrahim Tatlısəs qəzaya düşdü

***Türkiyəli müğənni İbrahim Tatlısəs 9 yaşlı qızı Elif Ada ilə avtomobil qəzası keçirib.***



Hadisə səhər saatlarında Bodrumda baş verib. Nəticədə 70 yaşlı müğənni xəsarət alıb. Əraziyə aidiyyəti qurumlar cəlb olunub. Onlar ifaçını xilas etməyə çalışırlar.

Sənətçinin yer aldığı maşın dərəyə yuvarlanıb. Maşında sıxışıb qalan İbrahimi oradan çıxartmaq mümkün olub. Tatlısəsin avtomobildən çıxarıldığı səhhətinin yaxşı olduğu bildirilib.

Tatlısəsin keçmiş xanımı, qızı Elif Adanın anası Ayşegül Yıldız "2-ci Sayfa"ya açıqlama verib. O bildirib ki, qəza zamanı övladı maşında olmayıb:

"İbrahim bəylə bir az əvvəl telefonla danışdım. Qızım Elif Adanı Bodrumda xalasının yanında qoyub İstanbula qayıtmışdım. Qəza xəbərini eşitdikdə ömrümdən ömür getdi. Çox şükür, qızım avtomobildə olmayıb".




# Tehran Mənsimov 50 illik yubileyini belə qeyd etdi

***Ötən gün Prezidentin Təhlükəsizlik Xidmətinin əməkdaşı, polkovnik Tehran Mənsimovun 50 yaşı tamam olub.***

"Unikal"ın məlumatına görə, polkovnik öz doğum gününü Bakı şəhərində yerləşən restoranların birində qeyd edib. T.Mənsimovun doğum günündə onun yaxınları, həmçinin güləş üzrə üç qat Dünya çempionu Hacı Əliyev də iştirak edib.

Qeyd edək ki, Tehran Mənsimov Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun zabiti olub və Vətən müharibəsində aktiv iştirak edib.

***Murad İbrahimli***

# Gələn həftə deputatların tətili başa çatır

***Gələn həftə Azərbaycan Milli Məclisinin deputatlarının tətil müddəti başa çatır.***

"Unikal" xəbər verir ki, millət vəkillərinin yay tətili avqustun 30-da bitəcək. Sentyabrın 15-dən etibarən parlamentin komitələri fəaliyyətə başlayacaq.

Milli Məclisin Daxili Nizamnaməsinə əsasən, parlamentin payız sessiyası sentyabrın 30-da başlayır və dekabrın 30-dək davam edir. Əgər sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır.

Xatırladaq ki, deputatlar iyulun 8-də tətilə çıxmışdı.

***Anar Kəlbiyev***

# Vətən Müharibəsi ilə bağlı serial çəkən şirkətə 1 milyon dollar ödəniləcək

***Mədəniyyət Nazirliyi "Qarabağ Vətən Müharibəsi" şərti adlı 8 bölümlü bədii serialın çəkilməsi ilə bağlı elan etdiyi açıq tenderə yekun vurub.***

"Unikal" dövlət satınalmalarının vahid internet portalına istinadən xəbər verir ki, tenderin qalibi Türkiyənin "Bozdağ Film Yapım Prodüksiyon Reklam İnşaat Turizm Sanayi Ticaret Anonim Şirketi"dir. Qalib şirkətə 1,7 milyon manat (1 milyon ABŞ dolları) ödəniləcək.

Serialın ilk bölümünün bu il noyabrın 8-də - Zəfər Günündə yayımlanması nəzərdə tutulub.

"Bozdağ film" studiyası Türkiyənin "Kuruluş Osman", "Destan", "Mehmetçik" və s. bir sıra məşhur seriallarin istehsalçısıdır.

# Cahangir Əsgərovun ailə şirkətindən müəmmalı qərar

## "Sil Vey Holdinq"ə daxil olan MMC niyə ləğv edilib?

***Yola salmaq üzrə olduğumuz həftə "Silk Vey Holdinq" MMC-yə daxil olan "Silk Vey Konnekt" MMC ləğv olunduğunu elan edib. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "Vergilər" qəzetində yerləşdirilən elana əsasən, kreditorlar 2 ay ərzində tələblərini Bakı şəhəri, Xəzər rayonu, Heydər Əliyev Beynəlxalq aeraportuna bildirə bilərlər.***

Xatırladaq ki, "Silk Vey Konnekt" 2018-ci ildə yaradılıb. Cəmi 4 il öncə təsis olunan bu şirkətin niyə ləğv edildiyi məlum deyil. Holdinq bu qərarının səbəblərini açıqlamayıb.

"Unikal"ın araşdırması nəticəsində isə məlum olub ki, ötən ilin iyununda da "Silk Vey Holdinq"ə daxil olan iki şirkət ləğv edilib. Bunlar "Silk Vey East Aviaşirkəti" və "Silk Vey İnvestment" MMC-lər idi. Adları çəkilən şirkətlər müvafiq olaraq 2016-cı və 2007-ci ildən fəaliyyət göstərirdilər. Hər iki holdingə Zaur



Axundov rəhbərlik edirdi.

Bu yerdə onu da qeyd edək ki, "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) rəhbəri Cahangir Əsgərovun ailə şirkəti kimi tanınan "Silk Vey Holkdinq" "aviadaşınma və təyyarələrin istismarı sahələrində müxtəlif xidmətlər göstərən şirkətlər qrupunu idarə və inkişaf etdirmək" üçün 2006-cı ildə yaradılıb. Hazırda holdinqə 1400-dən çox yüksək ixtisaslı mütəxəssisin çalışdığı "Silk Vey Vest Airlayns", "Silk Vey Airlayns" və "Silk Vey Texniks" kimi şirkətlər daxildir.

16 il öncə, iyulun 4-də C.Əsgərovun yaxın qohumlarından birinin adına təsis etdiyi holdinq, qısa müddətdə bir imperiyaya çevrilib. Rəsmi hesabatlara görə, AZAL prezidenti Cahangir Əsgərovun ailə üzvləri - həyat yoldaşı Zərifə Həmzəyeva, qızları Məlahət və Cəmilə aviaşirkətin infrastrukturundan istifadə edən "Silk Vey Holdinq" şirkətlər qrupunun, qrupa daxil olan sığorta şirkətinin və bankın əsas payçılarıdır.

Daha bir maraqlı məqam: ötən ilin yayında "SilkVey Holdinq" MMC-nin nizamnamə kapitalının böyük hissəsi geri çəkilməklə kiçildilib. Belə ki, holdinqin nizamnamə kapitalı 39.63 milyon manat azaldılıb və 6.47 milyon manata enib. Bu isə 86% azaldılma demək idi.

Bildirək ki, aviaşirkətin nizamnaməmə kapitalı 2021-ci ilin iyun ayına qədər rəsmi olaraq 46.10 milyon manat təşkil edirdi.

Bu rəqəmin ötən il kəskin azaldılmasının tam təfərrüatları məlum deyildi, lakin Əsgərovun adıçəkilən ailə şirkətinin idarəçiliyində son illər xeyli problemlərin olduğu barədə media dəfələrlə yazmışdı. Ən diqqətçəkən nüans isə 2019-cu ildə ortaya çıxmışdı: belə ki, 2018-ci ilin sentyabrında vəzifəsindən azad edilən holdinq prezidenti Zaur Axundov təxminən bir il sonra, iyunun 3-dən etibarən işə çıxmağa başlamış, yəni rəhbər posta bərpa edilmişdi.

Həmin vaxt iddia edilirdi ki, Axundovun "Silk Vey Holdinq" rəhbərliyinə qayıtması bu şirkətlər qrupunun sahibi olan Cahangir Əsgərovun iradəsindən kənarda baş verib. AZAL "şef"inin buna mane olmaq üçün bütün imkanlarından istifadə etdiyi, ancaq nəticə əldə edə bilmədiyi qeyd olunurdu. "Mənbə belə bir faktın - Cahangir Əsgərovun "vurduğu" kadrın geri qayıda bilməsinin bəlkə də ilk dəfə baş verdiyini vurğulayır. Bu isə bəzi ciddi suallara yol açır: Cahangir Əsgərov əvvəlki gücünü itiribmi? Yoxsa onun biznes imperiyasının əlindən alınmasına hazırlıq gedir?g" - həmin vaxt yerli KİV bildirirdi.

O da maraqlıdır ki, 2018-ci ildə C.Əsgərovla Z.Axundov arasında xeyli insanın gözü qarşısında ağır ifadələrlə müşahidə olunan və az qala əlbəyaxa dava ilə nəticələnən qalmaqalın baş verdiyi barədə də məlumat yayılmışdı. Bu hadisədən sonra ikincinin holdinqə qayıdışının AZAL prezidenti üçün nə anlama gəldiyini xüsusi izah etməyə ehtiyac qalmır.

Onu da deyək ki, C.Əsgərovun Z.Axundovu vəzifəsindən azad etməsinə səbəb kimi "Silk Vey Holdinq"in fəaliyyəti üçün Beynəlxalq Bankdan götürülmüş kreditlərin qaytarılmasında çox ciddi problemlərin yaranması göstərilmişdi. Məlumata görə, "Silk Way Holding" qurulduqdan sonra Beynəlxalq Bankdan 400 milyon dollar kredit götürüb. Ehtimal ki, digər vəzifəli şəxslərin şirkətlərinə, himayələrindəki iş adamlarına verilən 100 milyonlarla kredit kimi, bu halda da hər hansı girov tələb olunmayıb. Sadəcə, AZAL prezidentinin o zaman Beynəlxalq Banka rəhbərlik edən adaşından xahişi 400 milyonun "Silk Vey Holdinq"ə ayrılması üçün kifayət edib. Görünür ortada girov olmadığından, şirkət kreditləri qaytarmağa maraq göstərməyib. Ancaq Prezidentin fərmanı ilə Beynəlxalq Bankın problemli kreditlərinin "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinə dövr edilməsi və onun rəhbəri Məmməd Musayevə istənilən vasitə ilə pulların yığılmasının tapşırılması vəziyyəti dəyişib.

Məlumata görə, Cahangir Əsgərovdan da Beynəlxalq Bankdan götürülmüş kreditlərin qaytarılması tələb olunub. Lakin çox ciddi nağd pul problemi üzündən C.Əsgərov bu tələbi yerinə yetirə bilməyib. Elə Cahangir Əsgərovun da buna görə, yəni Beynəlxalq Bankdan götürülən kreditlərin qaytarılmamasının məsuliyyətini "Silk Vey Holdinq"in rəhbərliyinin üzərinə qoymaq üçün Zaur Axundovu vəzifəsindən azad etdiyi bildirilirdi. Hətta inandırıcı olsun deyə AZAL prezidentinin "Silk Vey Holdinq"də təftişə başlatdığı da qeyd olunurdu."Ancaq görünür Zaur Axundov ABB kreditlərinin qaytarılmamasına görə günahsızlığını sübut edə bilibg Və ya holdiqin rəhbərliyinə qayıdacağı halda həmin vəsaiti ödəyə biləcəyinə dair öhdəlik götürüb" - üç il öncə mətbuat bunu da yazırdı.

Hər bir halda cəmi bir il içində adıçəkilən şirkətlər qrupuna daxil olan 3 tanınmış MMC-nin ləğvi, eləcə də holdinqin nizamnamə kapitalının kəskin (86 faiz) azaldılması maraq doğurur və suallar yaradır. Belə aydın olur ki, Əsgərovun ailə şirkətində sular nəinki durulmayıb, hətta bir az da bulanıb...

***Sənan Mirzə***

# Tərəflər arasında növbəti görüş - “Zəngəzur dəhlizi” masada

***Avropa Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında görüş avqustun 31-də baş tutacaq.***





**Tofiq Zülfüqarov: “Zəngəzur dəhlizi məsələsinin müzakirəsi Brüssel görüşündə ən vacib məsələlərdən biri olacaq”**



**Səməd Seyidov: “Əgər Ermənistan hansısa bəhanə ilə danışıqları uzatmağa çalışacaqsa, ”Dəmir yumruq” işə salına bilər”**

Bu barədə məlumatı Ermənistan hökumətinin mətbuat xidməti təsdiqləyib. Bildirilib ki, görüş Brüsseldə baş tutacaq. Bundan əvvəl yayılmış məlumatlarda görüşün Moskvada Rusiya prezidenti Vladimir Putinin vasitəçiliyi ilə keçiriləcəyi bildirilmişdi. Lakin iki ölkə liderinin görüş yeri barədə hələlik rəsmi açıqlama verilməyib. İstənilən halda tez bir zamanda liderlərin bir araya gəlməsi gözləniləndir.

Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov “Unikal”a açıqlamasında deyib ki, avqustun 31-də Avropa Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında keçiriləcək görüşdə əsas müzakirə mövzusu kommunikasiyalar məsələsi olacaq.

”Ən vacib mövzulardan biri də Zəngəzur dəhlizidir. Çünki, Zəngəzur dəhlizi Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında mütəmadi bağlantının yaradılması üçün çox mühümdür. Eyni zamanda, regiondan kənar olan oyunçuların da bu məsələyə marağı artmaqdadır. Azərbaycan və Rusiyanın bu məsələdə Ermənistana təzyiq göstərəcəyi istisna olunmur. Çünki Zəngəzur dəhlizi Azərbaycanla yanaşı, Türkiyə və Rusiya üçün də vacibdir. Biz başa düşürük ki, hazırkı mərhələdə Rusiya-Türkiyə, Rusiya-İran və Fars körfəzi istiqamətində gedən iqtisadi maraqların daha da fəal olması üçün dəmiryolu xətti lazımdır. Buna görə də, Zəngəzur dəhlizinin əhəmiyyəti artır.

Təbii ki, Zəngəzur dəhlizinin açılmasına qarşı çıxanlar da var. Regiondakı bəzi oyunçular və Qərb dövlətləri tərəfindən buna qarşı çıxanların olması da istisna deyil. Bu baxımdan hesab edirəm ki, digər mövzularla yanaşı Zəngəzur dəhlizinin müzakirəsi Brüssel görüşündə ən vacib məsələlərdən biri olacaq. Çünki həm Avropa İttifaqı, həm də Amerika Birləşmiş Ştatları bu münaqişə ilə bağlı verdikləri bəyanatlarda bildirirlər ki, onlar texniki yardım göstərməyə hazırdırlar. Texniki yardım ilk növbədə kommunikasiya əlaqələrinin bərpası deməkdir. Biz görürük ki, onların da bu mövzuya marağı yüksək səviyyədədir, - deyə o bildirib.

Onu da qeyd edək ki, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası üzrə ikitərəfli dövlət komissiyasının ikinci görüşünün tarixi bəlli olub. Bu görüş avqustun 30-da Moskvada keçiriləcək. Sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı ikitərəfli dövlət komissiyasının Azərbaycan tərəfdən həmsədri Baş nazirinin müavini Şahin Mustafayevdir.

Delimitasiya komissiyalarının görüşünə gəlincə, Tofiq Zülfüqarov gözləntilərinin müsbət olmadığını söyləyib: “Delimitasiya prosesində hansısa irəliləyişləri çox da gözləmirəm. Çünki delimitasiya digər praktik proseslərlə bağlıdır. Azərbaycan bu məsələdə o qədər də tələsimir. Biz görürük ki, Ermənistan əsas prinsiplərə riayət etmək istəmir. Yəni bizim daxili işlərimizə qarışmaqda davam etmək niyyətindədir. İrəvan bunu Qarabağda gedən proseslərə münasibətində göstərir. Həm də bu texniki məsələdir. Təbii ki, belə şəraitdə hansısa texniki məsələnin aktual olmasına inanmıram”.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, deputat Səməd Seyidov isə “Unikal”a açıqlamasında deyib ki, Azərbaycan artıq elə bir reallıq yaradıb ki, hər bir görüş, hər bir diplomatik addım Azərbaycanın siyasi maraqlarını ən yüksək səviyyədə təmin edir.

Onun sözlərinə görə, Azərbaycan hər hansı görüş keçirirsə və bu istiqamətdə addım atırsa, bunların hamısı dövlətimizin milli maraqlarına uyğundur. “Misal üçün, bir neçə gün öncə Brüsseldə Prezidentin köməkçisi Hikmət Hacıyevlə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında görüş keçirildi. Həmin görüşün də böyük əhəmiyyəti var idi. Həmçinin, delimitasiya ilə bağlı görüşlərin keçirilməsi də olduqca vacibdir. Hesab edirəm ki, Avopa İttifaqının təşkil etdiyi ”Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində Azərbaycan və Ermənistan dövlət başçılarının görüşü də keçirilə bilər. Bu da, əlbəttə ki, Azərbaycanın xeyrinədir. Əgər Ermənistan tərəfi hansısa bəhanə ilə danışıqları uzatmağa çalışacaqsa, bilməlidir ki, ”Dəmir yumruq” hər zaman yerindədir və lazım olan anda işə salına bilər. Biz bunu qisas əməliyyatında da gördük”, - deyə o bildirib.

***Murad İbrahimli***



# İrəvan xanının nəticəsi Qarabağda

***İrəvan xanının nəticəsi Əmir Əli Sərdari İrəvaninin ailə üzvləri ilə birlikdə Qarabağa ilk səfəri işğaldan azad edilmiş Füzuli rayonundan başlayıb.***

Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib. Dövlət Komitəsinin dəstəyi və təşkilatçılığı ilə gerçəkləşən səfər zamanı qonağa Füzuli şəhər mərkəzinin və məscidin dağıntıları nümayiş etdirilib. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı rayon ərazisində dağıdılmış tarixi, mədəni və dini abidələr, törədilmiş ekoloji terror, post-müharibə dönəmində aparılan yenidənqurma və tikinti işləri barədə qonağa ətraflı məlumat verib.

Füzuli hava limanı ilə tanış olarkən Əmir Əli Sərdari İrəvani ilk təəssüratlarını Vəsilə Vahidqızının müəllifi və aparıcısı olduğu “Vətən uzaqda deyil” proqramı ilə bölüşüb. O bildirib ki, Bakıya ilk dəfə iki il öncə səfər edib: “Qarabağa səfərim arzu olaraq qalırdı. İndi isə mən buradayam. İnanılmazdır, mən Qarabağ bölgəsinə səfər edirəm. Ermənilərin burada törətdikləri dəhşətlidir. Amma eyni zamanda biz belə tikilini də görürük (hava limanını nəzərdə tutur). Bu tikinti işləri regionun simasını tamamilə dəyişir. Mən burada olduğuma görə çox xoşbəxtəm”, - deyə İrəvan xanının varisi hisslərini ifadə edib.

Qeyd edək ki, 1974-cü ildə Tehranda anadan olan Əmir Əli Sərdari İrəvani 2003-cü ildən Almaniyada yaşayır. Alman avtomobil sənayesində araşdırma və inkişaf sahəsində mühəndis kimi çalışır, eyni zamanda etnoqraf və tarixçi kimi də tanınır. O, yerli və beynəlxalq ictimaiyyətə İrəvan xanlığı haqqında doğun məlumatların çatdırılmasında kifayət qədər fəallıq göstərən şəxslərdəndir.

# Ermənilər Laçından 46 “xaçkar” söküb apardılar

***Laçın şəhəri, Zabux və Sus kəndələrində ucaldılmış erməni “xaçkar”larının hamısı evakuasiya olunub.***

Bunu “Armenpress”ə Qarabağdakı separatçıçların nümayəndəsi Lernik Hovhannisyan deyib. O, sökülüb aparılan “xaçkar”ları “erməni monumental sənət abidələri” adlandırıb.

Ümumilikdə üç yaşayış məntəqəsindən 46-ya yaxın “xaçkar” sökülüb. Lernik Hovhannisyan deyib ki, onlar erməni milli qəhrəmanlara, qondarma “erməni soyqırımı”na və müxtəlif yaddaqalan hadisələrə həsr olunmuş xaç daşları və bəzi digər abidələrdir.

O, hazırda “xaçkar”ların harada yerləşdirilməsinin müzakirə olunduğunu da qeyd edib.

“Hazırda biz bir neçə variantı müzakirə edirik. Müvafiq təkliflər nəzərdən keçirilir”, deyə separatçıların nümayəndəsi Xankəndi və ya Ağdərədə “xaçkarlar”ın parkını yaratmağı da düşündüklərini vurğulayıb.

# Prezidentdən deputatla bağlı SƏRƏNCAM



***Fəzail Rəhim oğlu Ağamalı 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

O, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

# İlham Əliyev Ələt zonası ilə bağlı sərəncam İMZALADI

***Prezident İlham Əliyev Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamda deyilir:

1. "Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən, Bakı şəhəri Qaradağ rayonunun inzibati ərazisində yerləşən və Ələt azad iqtisadi zonasının ərazisi qismində müəyyən edilmiş torpaq sahəsinin ilkin mərhələdə bu Sərəncamın əlavəsindəki yerquruluşu planında göstərilmiş, dövlət mülkiyyətinə aid 60,0 hektar təşkil edən hissəsi birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumuna verilsin.
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

# Müəllimlərin işə qəbulu üzrə müsahibə mərhələsi başa ÇATDI

***Avqustun 25-də 2022-2023-cü tədris ili üzrə müəllimlərin işə qəbulu müsabiqəsinin müsahibə mərhələsi başa çatıb.***

"Unikal" xəbər verir ki, bu haqda Elm və Təhsil Nazirliyi məlumat yayıb.

Bildirilib ki, müsahibə mərhələsinin son günündə fizika (Azərbaycan və rus bölməsi), ibtidai sinif (Azərbaycan və rus bölməsi), Azərbaycan dili, alman dili (Azərbaycan və rus bölməsi), ingilis dili (Azərbaycan və rus bölməsi), kimya, fiziki tərbiyə fənləri üzrə müsahibələr təşkil olunub. Müsahibələrin son gününə 678 nəfər dəvət olunub. Onlardan 646 namizəd müsahibə mərhələsində iştirak edib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:1700

# Avqustun müavinət, təqaüd, ünvanlı yardımları ödənildi

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən avqust ayının bütün müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları da bu gün ödənilib.***

"Unikal" xəbər verir ki, vətəndaşlar bu sosial ödənişlərini onlara verilmiş kartlar vasitəsilə müvafiq bankların bankomatlarından əldə edə bilərlər.

Bundan əvvəl, avqustun 9-da Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu, avqustun 16-da ölkəmizin digər bölgələri üzrə pensiyalar (o cümlədən güzəştli şərtlərlə təyin edilmiş pensiyalar) ödənilib.

Beləliklə, bütün sosial təminat növləri üzrə avqust ayının sosial ödənişləri bu gün yekunlaşıb.

# Vladimir Putin Mehriban Əliyevanı təbrik edib

***Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli Mehriban Arif qızı.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz dövlətlərimiz arasında bu il müttəfiqliyin yeni səviyyəsinə çıxan münasibətlərin möhkəmlənməsinə böyük şəxsi töhfə verirsiniz. Əminəm ki, bir çox istiqamətlər üzrə ikitərəfli konstruktiv əlaqələr, xalqlarımızın dostluğu bundan sonra da möhkəmlənəcək.



Hörmətli Mehriban Arif qızı, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, rifah və uğurlar arzulayıram. Səmimi salamlarımı İlham Heydər oğluna və bütün ailənizə çatdırmağınızı xahiş edirəm".

# Rəsmi Bakıdan ABŞ-ın bu addımına sərt cavab

***"Amerika Birləşmiş Ştatlarının dövlət katibi Antoni Blinkenin Qafqaz danışıqları üzrə baş məsləhətçi vəzifəsinə Filip Rikerin təyin olunmasına dair mətbuat bəyanatında bölgədəki post-münaqişə reallığından uzaq yanaşmanın sərgilənməsi təəccüb doğurur".***

"Unikal" xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ABŞ Dövlət katibi Antoni Blinkenin 24 avqust tarixli mətbuat bəyanatına münasibət bildirərkən



deyib.

O vurğulayıb ki, Minsk Qrupu ilə bağlı Azərbaycanın mövqeyi ən yüksək səviyyədə dəfələrlə və aydın şəkildə ifadə olunub: "Faktiki olaraq fəaliyyət göstərməyən Minsk Qrupunun "reanimasiya" edilməsi cəhdləri ABŞ-ın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindən uzaqlaşması ilə nəticələnə bilər. Qarabağ münaqişəsi həll olunub və Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Beynəlxalq ictimaiyyət, o cümlədən tərəfdaşlarımız anlamalıdır ki, Azərbaycan Ermənistan münasibətlərinin normallaşması üzrə danışıqların Qarabağ məsələsi ilə əlaqələndirilməsi heç də normallaşmaya xidmət etmir".

# Gələn həftə deputatların tətili başa çatır

***Gələn həftə Azərbaycan Milli Məclisinin deputatlarının tətil müddəti başa çatır.***

"Unikal" xəbər verir ki, millət vəkillərinin yay tətili avqustun 30-da bitəcək. Sentyabrın 15-dən etibarən parlamentin komitələri fəaliyyətə başlayacaq.

Milli Məclisin Daxili Nizamnaməsinə əsasən, parlamentin payız sessiyası sentyabrın 30-da başlayır və dekabrın 30-dək davam edir. Əgər sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır.

Xatırladaq ki, deputatlar iyulun 8-də tətilə çıxmışdı.

***Anar Kəlbiyev***



# Vilayət Eyvazov sıra baxışı keçirdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov avqustun 25-də Şəki Şəhər-Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib. Nazir qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub. Sonra Şəhər-Rayon polis şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarından gələn 162 vətən-



daşı qəbul edən nazir onların müraciətlərini dinləyib, problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Qəbula gələn vətəndaşlar onların ərizə və müraciətlərinə operativ yanaşılmasına, o cümlədən göstərilən diqqətə və həssas münasibətə görə dövlətimizin başçısına minnətdarlıq ediblər.

Bölgəyə səfəri çərçivəsində general-polkovnik V.Eyvazov polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında Şəki şəhəri və ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. Xidmətə qəbulun şərtlərinə uyğun gələn 87 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 23 nəfəri Vətən müharibəsi iştirakçısı, 2 nəfəri isə şəhid ailələrinin üzvüdür.

# Prezident yeni səfirlərin etimadnamələrini qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Dominikan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Elvis Antonio Alam Loranın etimadnaməsini qəbul edib.***

"Unikal" xəbər verir ki, Elvis Antonio Alam Loran etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı ikitərəfli əlaqələrə toxunaraq, İkinci Qarabağ müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı siyasi hücumlar fonunda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi Dominikan Respublikasının ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək hüququnun BMT Təhlükəsizlik Şurasının bəzi üzv dövlətləri tərəfindən pozmaq cəhdinin qarşısı Dominikan Respublikası və Təhlükəsizlik Şurasına üzv olan bir sıra dövlətlərin qəti mövqeyi sayəsində alınıb. Dövlətimizin başçısı, eyni zamanda, Dominikanın Qoşulmama Hərəkatında da Azərbaycanın Qarabağla bağlı haqlı mövqeyini dəstəkləyən bir ölkə olduğunu məmnunluqla vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin uzadılmasına, COVID-19-la, həmçinin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Gənclər təşkilatının yaradılması ilə bağlı təşəbbüslərinin Dominikan tərəfindən dəstəklənməsini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu dedi, eyni zamanda, ticari və iqtisadi sahələrdə əməkdaşlığın genişlənməsi yollarının da müəyyənləşdirilməsinin zəruriliyini bildirdi.

Səfir ilk növbədə Dominikan Respublikasının Prezidenti Luis Abinaderin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Dominikan Prezidentinə çatdırmağı xahiş etdi.

Səfir qeyd etdi ki, Azərbaycan kimi çox gözəl ölkəyə səfərindən və Dominikanın Azərbaycana ilk səfiri təyin olunmasından məmnunluq duyur. Elvis Antonio Alam Loran ölkəmizlə ticarət, turizm sahələrində və digər sahələrdə dinamik əlaqələrin qurulacağına ümidvar olduğunu vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Bosniya və Herseqovinanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adis Alagiçin etimadnaməsini qəbul edib.

"Unikal" xəbər verir ki, Adis Alagiç etimadnaməsini dövlət başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib.

İkitərəfli əlaqələrə toxunan dövlət başçısı Bosniya və Herseqovinanın rəhbərləri, o cümlədən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviçlə görüşlərini məmnunluqla xatırladı və ona salamlarını çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev bu görüşlərdə çox səmimi və səmərəli müzakirələrin aparıldığını dedi.

Dövlətimizin başçısı Ermənistanın işğalı zamanı və Qarabağın azad edildiyi dövrdə Bosniya və Herseqovinanın Azərbaycanın yanında olmasını yüksək qiymətləndirdi və bunu ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev, eyni zamanda, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatında da göstərilən qarşılıqlı dəstəyin önəmini qeyd etdi.

Səfir ilk növbədə Bosniya və Herseqovina rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Bosniya və Herseqovina rəhbərliyinə çatdırmağı xahiş etdi.

Azərbaycana səfir təyin olunmasından qürur duyduğunu qeyd edən Adis Alagiç fəaliyyəti dövründə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcini dedi.

Səfir vurğuladı ki, ölkəsi Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun olaraq öz ərazi bütövlüyünü müdafiə etməsini və Qarabağın uğurla bərpa olunmasını dəstəkləyir. O, ötən il Ağdama, yaxın günlərdə isə Şuşaya planlaşdırılan səfərindən məmnunluq hissi duyduğunu bildirdi. Adis Alagiç ölkələrimiz arasında çox güclü siyasi əlaqələrin ümumilikdə ikitərəfli münasibətlərimizə olduqca müsbət təsir etdiyini dedi. Diplomat ölkəsinin ikitərəfli və çoxtərəfli səviyyədə əlaqələrimizi daha da möhkəmləndirilməsində maraqlı olduğunu qeyd etdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Tailand Krallığının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Apirat Suqondhabhiromun etimadnaməsini qəbul edib.

"Unikal" xəbər verir ki, səfir Apirat Suqondhabhirom etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Dövlət başçısı səfirlə söhbət edib.

Prezident İlham Əliyev Azərbaycan-Tailand ikitərəfli münasibətlərinin çox yaxşı səviyyədə olduğunu qeyd edərək müxtəlif sahələrdə, xüsusən də Tailandda çox inkişaf edən turizm istiqamətində daha fəal şəkildə əməkdaşlığın həyata keçirilməsinin zəruriliyini bildirdi, texnologiya sahəsində əlaqələrin qurulmasının mümkünlüyünü vurğulayıb. Azərbaycanda az sayda Tailand şirkətinin fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı ölkələrimizin mövcud potensialı nəzərə alınaraq iqtisadi sahədə əlaqələrin genişlənəcəyinə ümidvar olduğunu deyib.

Azərbaycana gəlişindən məmnunluğunu ifadə edən Apirat Suqondhabhirom paytaxtımızın gözəlliyinin onda dərin təəssürat hissi yaratdığını söyləyib. Səfir də öz növbəsində Azərbaycan ilə Tailandın mövcud potensialını qeyd edərək, müxtəlif istiqamətlərdə, o cümlədən turizm sahəsində əməkdaşlığın genişləndirilməsi və insanlarımız arasında əlaqələrin qurulması istiqamətində səylərini əsirgəməcəyini bildirib.

Söhbət zamanı qida məhsullarının emalı sahəsində əməkdaşlıq məsələlərinə də toxunulub.

# Əli Əsədov Qırğızıstan Prezidenti ilə görüşdü

***Avqustun 25-də Qırğız Respublikasına işgüzar səfəri çərçivəsində Avrasiya Hökumətlərarası Şurasının iclasında qonaq qismində iştirak edən Azərbaycanın Baş naziri Əli Əsədov Çolpon-Ata şəhərində Qırğızıstan Prezidenti Sadır Japarov ilə görüşüb.***

Bu barədə "Unikal"a Nazirlər Kabinetindən məlumat verilib. Qırğızıstan Prezidenti Sadır Japarov Baş nazir Əli Əsədovu və iclasın digər iştirakçılarını, o cümlədən Avrasiya Hökumətlərarası Şurasının üzvlərini və tədbirdə müşahidəçi və qonaq qismində iştirak edən dövlətlərin hökumət başçılarını salamlayıb.

Baş nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Qırğızıstan Prezidentinə çatdırıb.

Ə.Əsədov, həmçinin Azərbaycan-Qırğızıstan strateji tərəfdaşlığının ikitərəfli gündəliyində duran məsələlərə toxunub.

# Fövqəladə Hallar Nazirliyi ləğv olunacaq? - Açıqlama

***"Mövcud olan nazirliklərin ləğv edilməsi və ya yeni nazirliyin yaradılması Prezident İlham Əliyevin müstəsna səlahiyyətindən olan məsələdir".***

Bunu "Unikal"a açıqlamasında deputat Razi Nurullayev deyib. Deputat bildirib ki, onun üçün Fövqəladə Hallar Nazirliyinin ləğv edilməsi və ya digər quruma birləşdirilməsi məntiqli yanaşma deyil.

"O baxımdan ki, bütün dünyada kataklizmlər baş alıb gedir. Yanğın, uçqun, daşqın və s. hallar baş verir. Dünyada fövqəladə hallarla bağlı daha böyük qurumlar yaradılır, mövcud olanlar böyüdülür. Elə bir dövrdə yaşayırıq ki, hər gün qəza, yanğın, uçqun, daşqın baş verir. Bu baxımdan, Fövqəladə Hallar Nazirliyinin ləğv olunacağı fikirləri o qədər də məntiqli görünmür. Düşünmürəm ki, bir nazirlikdə problem baş verirsə, həmin an o nazirlik ləğv olunmalıdır. Pis hadisələrin baş verməsi hər bir vətəndaşı incidir. Amma nazirliyin ləğv olunacağını, belə bir məsələnin gündəmdə olduğunu düşünmürəm.

***Anar Kəlbiyev***

# Azərbaycanda baş verən 6 yanğının qəsdən törədildiyi aşkarlandı

***Qəsdən yanğın hadisəsi törədən şəxslərə qarşı ciddi mübarizə aparılır.***

Bunu Dövlət Yanğın Nəzarəti Xidmətinin, dövlət yanğın nəzarəti işinin təşkili şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Cəmil Xudiyev deyib. Onun sözlərinə görə, 2022-ci ilin ötən dövrü ərzində aparılmış məqsədyönlü araşdırmalar zamanı 6 ünvanda ərazilərin qəsdən yandırılması faktları aşkar edilib.

"Bu ərazilər, həyətyanı və açıq sahələrə, meşəətrafı yaşayış məntəqələrinin ərazilərinə və əkin sahələrinə təsadüf edib. Bildirmək istəyirəm ki, Dövlət Yanğın Nəzarəti Xidmətinin rəhbərliyinin xüsusi tapşırığı əsasında Xidmətin əməkdaşları tərəfindən miqyasından asılı olmayaraq baş vermiş bütün yanğın hadisələrinin səbəblərinin araşdırılması, günahkar şəxslərin müəyyən edilməsi istiqamətində qətiyyətli addımlar atılır. Qəsdən yanğın hadisəsi törədən şəxslərə qarşı ciddi mübarizə aparılır. Onlar barəsində kəskin tədbirlər görülür".

Şöbə rəisi bildirib ki, vətəndaşlara müxtəlif məqsədlərlə açıq sahələrin, həyətyanı ərazilərin, əkin sahələrinin, meşələrin qəsdən yandırılması hallarına son verilməsi və ətraf mühitin yanğından qorunması üçün yanğın təhlükəsizliyi qaydalarına riayət etmələri üçün çağırış edirik.

"Bildiririk ki, əks təqdirdə onlar barəsində təxirəsalınmaz hüquqi tədbirlər görüləcəkdir. Yanğın təhlükəsizliyi qaydalarının tələblərinin pozulması İnzibati Xətalar və Cinayət məcəllələrinin müvafiq maddələrinə əsasən inzibati və cinayət məsuliyyəti yaradır", - daxili xidmət polkovnik-leytenantı Cəmil Xudiyev bildirib.

# "Monopoliya qiymətlərin aşağı düşməsinə imkan vermir"

## Əli Məsimli: "Məmur sahibkarlığından qaynaqlanan monopoliyanın törətdiyi qiymət manipulyasiyası Azərbaycan əhalisinə daha böyük miqyasda ziyan vurmaqda davam edir"

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Əli Məsimli "Unikal"a müsahibə verib. O, çörəyin, unun qiymətinin bahalaşmasından, maaş və pensiyaların artma ehtimalından, son illər ərzaq məhsullarının qiymətinin qalxmasından, manatın məzənnəsinin necə olacağından və s. məsələlərdən danışıb.***

***-Bir neçə gün əvvəl Azərbaycanda un və çörəyin qiyməti bahalaşdı. İlin sonuna kimi yenidən çörəyin qiymətində artım ola bilərmi?***

-Son vaxtlara qədər çörəyin qiymətinə başqa ərzaq məhsullarından fərqli münasibət sərgilənirdi və onun qiymətinə birbaşa toxunulmurdu. Hökumət un və çörəyin qiymətinin qalxmaması üçün müəyyən iqtisadi xarakterli tədbirlər görür, qiyməti sabit səviyyədə saxlayırdı. Qiymət sabit saxlanılsa da, bir qayda olaraq çörəyin çəkisini azaltmaqla, buğda unundan ucuz müəyyən qatqılar əlavə etmək və s. hesabına dolayısı ilə qiymət artırılırdı. Bu, çörəyə həm kəmiyyət, həm də keyfiyyət baxımından mənfi təsir göstərir. Ona görə də çörək istehsalçılarının yalnız bir hissəsinin çörəyi çəki və keyfiyyət baxımından məqbul səviyyədədir. Bu ilin əvvəlindən çörəyin qiyməti artmağa başlayıb. Belə ki, bu ilin əvvəlində unun qiymətinin qalxmasının ardından pərakəndə satış obyektlərində çörəyin qiyməti 10-15 qəpik bahalaşdı. Zavod çörəyinin qiyməti 50 qəpik, 650 qramlıq çörəyin pərakəndə satış qiyməti isə 65 qəpik oldu. Bu ilin əvvəllərində olduğu kimi, avqustun 19-da Azərbaycanın iri un və çörək istehsalçıları yenə birgə məlumat yaydılar və 500 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti - 55 qəpik, 600 qramlıq çörəyin pərakəndə satış qiyməti - 65 qəpik, 650 qramlıq çörəyin pərakəndə satış qiyməti isə 70 qəpik oldu. Unun və çörəyin qiymətindəki avqust artımı son deyil. Amma əvvəlki illərdən fərqli olaraq bu il ərzində çörəyin qiyməti 2 dəfə artırılıb. Buna səbəb kimi ərzaqlıq buğda istehsalçısı olan ölkələrdə yaranmış siyasi, hərbi münaqişələrə görə dünya bazarlarında ciddi qiymət və tədarük riskləri göstərilib. Unun və çörəyin qiymətini qaldıranda, Azərbaycanın iri un və çörək istehsalçılarının yaydığı birgə məlumatdakı səbəblər getdikcə səngiyir. Yəni, COVİD-19 pandemiyasının təsirləri xeyli azalıb. Ərzaq buğdası bazarında böyük paya malik olan Rusiya və Ukrayna buğdası tədricən bazara çıxarılmağa başlayıb və bu iki ölkə bazara əhəmiyyətli dərəcədə əlavə məhsul çıxarmaq ehtiyatına malikdirlər. Dünya bazarlarında ərzaqlıq buğdanın qiyməti əvvəlki kimi yüksək templə artmır. Bu halda ilin sonunadək çörəyin qiymətinin növbəti dəfə qaldırılması üçün əsaslar yoxdur. Amma çəkini azaltmaq və keyfiyyəti aşağı salmaq yolu ilə qiyməti qaldırmaq variantı davam edə bilər.

***-Un və çörəyin qiymətindəki dəyişiklik digər ərzaq məhsullarının qiymətinə necə təsir göstərəcək?***

-Çörəyin qiyməti Azərbaycan əhalisi üçün çox həssas məsələlərdən biri olduğundan, son vaxtlara qədər bir sıra iqtisadi tədbirlər hesabına bu məhsulun qiymətinə toxunulmurdu. Həmişə çörəyin qiymətinin qaldırılmasının əleyhinə olmuşuq, indi də elədir. Çünki əhalinin xeyli hissəsi çox ağır durumda yaşayır, özünü gündəlik tələbat malları ilə lazımi səviyyədə təmin edə bilmir. Bir sıra aztəminatlı ailələrin vəziyyəti isə lap kritikdir. Aztəminatlı ailələrin qida rasionunda çörək əsas yer tutur. Ona görə də çörəyin qiyməti artanda, bu ailələrin kiçik olan büdcəsinə ciddi təsir edir. Unun qiyməti artanda, ondan hazırlanan bütün məhsulların qiyməti də qalxır. Çörəyin qiymətinin artması isə daha geniş dairədə qiymət artımına əlavə təkan verir. Digər məqam isə onunla bağlıdır ki, Azərbaycanda çörəyin qiyməti bir növ ümumi ekvivalent rolunu oynayır. Ölkəmizdə hansısa malın qiymətinin baha olmasına işarə edəndə, onun manatla ifadə olunan qiymətini deməklə yanaşı, həm də paralel olaraq bildirirlər ki, bu pula məsələn, 30, 40, 50 kilo un və ya neçə ədəd çörək almaq olar. Bu baxımdan, un və çörəyin qiymətinin bahalaşması bir sıra digər məhsulların qiymətinin artmasına da əlavə təsir göstərir.

***-Son illər ərzaq məhsullarının qiyməti sürətlə artır. Bu artımın əsas səbəbləri nədir və bahalaşma bundan sonra da davam edəcəkmi?***

-Qlobal iqlim dəyişiklikləri, pandemiya və onun ətrafında gedən proseslərin doğurduğu fəsadlar, Rusiyanın Ukraynaya müdaxiləsi nəticəsində baş verənlər və dəyər zəncirinin qırılması qlobal iqtisadiyyatın onilliklər boyu formalaşmış sistemini xeyli dərəcədə pozub. Qlobal iqtisadi artım templəri aşağı düşməyə başlayıb, ərzaq təhlükəsizliyi zəncirinin bütün həlqələrində ciddi problemlər yaşanır. Dəyər zəncirinin yaxın vaxtlarda lazımi səviyyədə bərpası mümkün olmadığından, qiymət artımı həm bu ilin sonunadək və həm də gələn il davam edəcək. Azərbaycanda antiinflyasiya tədbirlərinin görülməsi istiqamətində müəyyən addımlar atılsa da, görünən odur ki, qiymətlər artmaqda davam edir. Bu sahədəki neqativ dalğalanmaların təsirini minimuma endirmək, ərzaq məhsullarının qiymətlərinin kəskin artımının qarşısını almaq, ölkədə ərzaq təhlükəsizliyinin, kənd təsərrüfatı və qida məhsulları istehsalı sektorunun dayanıqlılığını təmin etmək üçün bu problemin həllinə köklü yanaşılmalı, sistemli antiinflyasiya tədbirlərinin görülməsinə böyük ehtiyac var. Son vaxtlar qiymətlərin qalxmasına qlobal xarakterli amillərin təsiri xeyli artıb. İndiki halda qlobal idxal inflyasiyasının təsirini azaltmaq olar, amma qarşısını tam almaq mümkün deyil. Əgər deyildiyi kimi, qiymət artımı təkcə qlobal amillərlə bağlıdırsa, onda məntiqlə qlobal miqyasda qiymətlər artanda bizdə də idxal etdiyimiz bir sıra mal və məhsullar üzrə qiymətlər artmalı, azalanda isə qiymətlər aşağı düşməlidir. Amma bu məsələ bizdə birtərəflidir. Yəni, yalnız artım olur, azalma olmur. Çünki məmur sahibkarlığından qaynaqlanan monopoliya qiymətlərin aşağı düşməsi variantının işləməsinə imkan vermir. Belə bir şəraitdə məmur sahibkarlığından qaynaqlanan monopoliyanın törətdiyi qiymət manipulyasiyası Azərbaycan əhalisinə daha böyük miqyasda ziyan vurmaqda davam edir. Onlar qiymətləri davamlı olaraq xırda-xırda, maaş artımı xəbəri çıxan kimi isə daha yüksək səviyyədə artırmağa başlayırlar. Nəticədə monopolistlər və onların əlaltıları qiymət manipulyasiyası vasitəsilə vətəndaşların artan maaş və pensiyalarını əllərindən alırlar. Bu cür qiymət manipulyasiyaları ucbatından vətəndaşlar dövlətin onların güzəranını yaxşılaşdırmaq üçün ayırdığı milyard manatlarla vəsaiti monopolistlərə ötürən vasitəçiyə çevrilib. Məmur monopoliyasının törətdiyi qiymət artımının hər faizinə görə il ərzində Azərbaycanda əhalinin ailə büdcəsinə 400 milyon manatdan çox ziyan dəyir. Bu məbləğ Azərbaycan neftinin qiymətinin artmasının hər faizindən əldə edilən gəlirlərdən xeyli çoxdur. Məmur sahibkarlığının törətdiyi monopoliyanın qiymət manipulyasiyaları vasitəsilə hər il əhaliyə milyard manatlarla ziyan vurulur. Bundan əlavə, məhsulları yerində alan inhisarçılar sonrakı mərhələdə onu 2-3 dəfə, bəzən isə daha yüksək qiymətə satırlar. İnhisarçılıqdan doğan bahalaşmanın qarşısını almaqla qiymət artımının tempini 30-40 faiz, bir sıra məhsullar üzrə isə ondan da çox faizlə aşağı salmaq olar. Ona görə də inhisarçılığa qarşı genişmiqyaslı mübarizəyə başlanılmalı, eləcə də daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarət gücləndirilməlidir.

***-Qiymət artımları fonunda maaş və pensiyaların yenidən artırılmasına baxıla bilərmi? Əgər bu olarsa, indiki bahalaşmaya görə artım nə qədər olmalıdır?***

-Rəsmi statistikaya görə, bu ilin yeddi ayında əhalinin hər nəfərinə düşən nominal gəlirlər 19 faiz, orta aylıq əmək haqqı 14 faiz, inflyasiya isə 13 faiz artıb. Amma bu rəsmi statistikadır. Əgər əhalinin hər nəfərinə düşən nominal gəlirləri və orta aylıq əmək haqqını əhali kateqoriyaları üzrə təhlil etsək, onda görərik ki, əhalinin xeyli hissəsinin real gəlirləri rəsmi statistikada göstərilən səviyyədə artmayıb. Nominal gəlirləri inflyasiya tempindən, xüsusən də ərzaq inflyasiyasının artım tempindən aşağı səviyyədə artdığından, real gəlirləri azalıb. Gündəlik tələbat mallarının çoxunun qiyməti isə 13 faiz deyil, ondan 2 dəfə, bəzən isə daha yüksək templə artıb. Yüksək ərzaq qiymətləri tələb və təklifdə elə ciddi dalğalanmalar formalaşdırıb ki, bazarda məhsul olsa da, əhalinin xeyli hissəsində lazımi qədər pul yoxdur ki, həmin məhsullardan heç olmasa minimum tələbatı ödəyə bilən qədər alıb istifadə etsin. Güzəranın daha da pisləşməsinin qarşısını almaq üçün əmək haqqı, pensiya və digər ödənişlər əhalinin itkilərini kompensasiya edə biləcək səviyyədə artırılmalıdır.

***-Neftin qiyməti əvvəlki aylarla müqayisədə ucuzlaşıb. Neftin ucuzlaşması davam edərsə, bu manatın məzənnəsinə necə təsir göstərəcək?***

-Son vaxtlar Azərbaycanda neft amilinin iqtisadiyyatdakı payının azaldılması istiqamətində müəyyən işlər görülür. Eyni zamanda neft hasilatının tədricən aşağı düşməsi də iqtisadiyyatımızda qeyri-neft sektorunun payının, eləcə də onun iqtisadi artımda xüsusi çəkisinin yüksəlməsinə təsir göstərir. Bununla belə, hələ də iqtisadiyyatımızda, büdcəmizdə, ixracımızda neft amilinin rolu və təsir gücü yüksəkdir. Neftin qiyməti 40 dollardan yüksək olanda, qiymət həmin "qırmızı xəttdən" nə qədər yüksək olursa, iqtisadiyyatımız, büdcəmiz, tədiyyə balansımız, xarici ticarətimiz də özünü bir o qədər yaxşı, qiymət ondan aşağı olanda isə pis hiss edir və devalvasiya təhlükəsi yaranır. Devalvasiya tədiyyə balansının vəziyyəti, valyuta ehtiyatları, kapital axını, ölkənin xarici ticarət siyasətinin yönümü, aktivlik dərəcəsi, eksport imkanları, psixoloji xarakterli və s. bu kimi bir sıra amillərlə şərtlənir. Manatın məzənnəsi daha çox dünya bazarında neftin qiymətindən, bu əsasda ölkəmizə daxil olan valyutanın həcmindən, bunun tədiyyə balansına təsir dərəcəsindən, eyni zamanda, Dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləğindən asılıdır. Qlobal geosiyasi və iqtisadi proseslərin fonunda bu ilin birinci yarısında dünya neft bazarında xam neftin bir barelinin qiyməti 110 dollar təşkil edib. Son vaxtlar müəyyən qalxıb-enmələr şəraitində neftin qiymətinin aşağı düşməsi müşahidə olunur. Hazırda isə qiymət 100 dolların ətrafındadır. Bu da 2022-ci ilin dövlət büdcəsinin əsasına qoyulmuş proqnoz rəqəmindən 1,6 dəfə yüksəkdir. Tədiyyə balansı da profisitlidir. Bu ilin birinci yarısında xarici ticarət balansında 12 milyard dollardan artıq müsbət saldo yaranıb. Yüksək neft qiymətlərinin uzunmüddətli olması ehtimalı az olsa da, beynəlxalq maliyyə təşkilatlarının və digər qurumların qənaətinə görə, qeyri-adi heç nə baş verməsə, 2022-ci ildə dünya bazarında neftin ortalama qiyməti bütün variantlarda Azərbaycan büdcəsində nəzərdə tutulan səviyyədən yüksək olacaq. İlboyu 70 və 90 dollar arasında qiymət dəyişkənliyi üçün imkanlar olacaq. İllik təxminən 85 dollarlıq orta qiymət proqnozlaşdırılır. Bu qiymətin kritik həddin başlanğıcı hesab olunan 40 dollardan 2 dəfə yüksək olması onu deməyə əsas verir ki, devalvasiya ehtimalı yoxdur. Bununla belə, hazırkı məzənnə siyasəti ilə manatı bundan sonra uzun illər 1 dollar -1,7 manat səviyyəsində saxlamaq mümkünsüzdür. Gec-tez tam üzən məzənnə rejiminə keçiriləcək. Manat sərbəst üzən məzənnə rejiminə keçərkən məzənnənin dəyişməsi labüd haldır. Amma məsələ bundadır ki, hazırkı iqtisadi şəraitdə, eləcə də məzənnə siyasətinin davamı kimi manatın tam üzən məzənnəyə keçidinin ilkin şərtləri yoxdur. Hazırda devalvasiya üçün real iqtisadi əsaslar və sərbəst üzən məzənnəyə keçilməsi üçün lazımi şərtlər mövcud olmasa da, çox güman ki, növbəti illərdə manatın sərbəst üzən məzənnəyə keçməsi ilə bağlı müəyyən qərarların verilməsi gündəmə gələcək. Azərbaycanda hazırkı məzənnə siyasətinin məntiqi nəticəsi bundan ibarətdir ki, maliyyə sektorunda durum kritik həddə çatanda, devalvasiyaya gediləcək. Neftin qiyməti 40 dollar ətrafına düşüb, bundan da aşağıya doğru azalmağa meyl götürsə, belə bir aşağı qiymət xeyli müddət davam etsə, onda makroiqtisadi vəziyyət də, tədiyyə balansındakı durum da pisləşəcək və devalvasiya qaçılmaz olacaq. Azərbaycan sərbəst üzən məzənnə rejiminə keçmədiyindən, manatın məzənnəsi ilə bağlı rəsmi qərarı Mərkəzi Bank verir.



***Anar Kəlbiyev***

# Etibar Pirverdiyevə növbəti zərbə

***Bu günlərdə məlumat yayıldı ki, məşhur futbol ustası Şövkət Orduxanovun adını daşıyan Qusar şəhər stadionunda təmir-bərpa işlərinə başlanılıb.***

Qeyd edək ki, 1962-ci ildə inşa edilmiş Qusar şəhər stadionu, 1999-cu ildə "Şahdağ"futbol klubuna 99 il müddətinə icarəyə verilib. Qusar rayon gənclər və idman idarəsinin rəisi Emil Əmirmətov yerli KİV-ə bildirib ki, hazırda stadionun ərazisində torpaq işləri görülür, ilk olaraq futbol meydançası hazırlanır. Daha sonra isə tribunanın və digər tikililərin inşasına başlanılacaq.

Xatırladaq ki, hələ bir neçə ay öncə, daha dəqiq desək, fevral ayında məlumat yayıldı ki, Qusar şəhərinin mərkəzində yerləşən stadion artıq 6-cı ildir təmirə dayanıb. Lakin faktiki olaraq heç bir təmir getmədiyi bildirilirdi.

"Stadionun işləməməsi rayonun futbol həvəskarlarını, şəhər sakinlərini də narahat edir. Qusar rayon gənclər və idman idarəsinin rəisi Emil Əmirmətov da şəhər stadionunun bu görkəmindən narazıdır. Sakinlər bildiriblər ki, 1962-ci ildə istifadəyə verilmiş stadion uzun illər "Məhsul" kənd İdman Cəmiyyətinin balansında olub. 1999-cu ildə "Şahdağ"futbol klubu tərəfindən 99 il müddətinə icarəyə götürülüb: "2017-ci ildə stadionu təmirə görə bağladılar. Və o vaxtdan nə zaman bərpa olunacağı barədə dəqiq heç bir məlumatımız yoxdur".

O da məlum olmuşdu ki, Qusar şəhər stadionunun təmir və bərpa işlərini "Azenko"şirkəti aparırmış. Ancaq şirkətin maliyyə problemləri səbəbindən işləri dayandırdığı bildirilirdi.

Xatırladaq ki, "Azenko" vaxtilə "Azərenerji"nin prezidenti postunu tutan Etibar Pirverdiyevin ailə biznesinə daxildir. Hətta Qusarda stadionun elə bu şirkətə satıldığı barədə də şayiələr dolaşıb. Yeri gəlmişkən, rayonun 1990-cı ildə yaradılmış peşəkar futbol komandası "Şahdag" komandası da artıq mövcud deyil. Bu komandaya sponsorluğu da Pirverdiyevin etdiyi deyilirdi. Lakin sabiq "işıq şefi" biznesindən kənarda hər işi olduğu kimi bu işi də yarıtmayıb və Qusar faktiki olaraq futbolsuz qalıb...

Yeri gəlmişkən, Gənclər və İdman naziri Fərid Qayıbovun Şabranda bölgədəki idarə rəhbərlərilə keçirdiyi görüş zamanı Emil Əmirmətov Qusar stadionunun işlək vəziyyətdə olmaması, bərpa işlərinin sürətləndirilməsi barədə yerli əhalinin xahişini onun diqqətinə çatdırıb. Nazir isə öz növbəsində bu məsələ ilə məşğul olacağına söz verib. Belə görünür ki, F.Qayıbov verdiyi sözü tutub və Qusar stadionunda təmir-bərpa işləri yenidən başlayıb. Gələn məlumatlar artıq stadionun Etibar Pirverdiyevdən alındığı yönündədir.

Onu da qeyd edək ki, əslən Qusar rayonundan olan keçmiş ASC sədri özünün biznes imperiyasını əsasən şimal rayonlarında, xüsusən də Qubada cəmləşdirmişdi. Onun bölgədə çoxsaylı restoranlarının, hotellərinin olduğu məlumdur. Lakin Pirverdiyev vəzifəsini itirdikdən sonra onun biznesi ciddi şəkildə zəifləyib.

Yada salaq ki, sabiq "işıq şefi" vəzifəsini biabırçı şəkildə itirmişdi. Belə ki, dörd il öncə - 2018-ci il iyulun 3-də Mingəçevir şəhərindəki "Azərbaycan İstilik Elektrik Stansiyası"nda baş vermiş qəza ölkəni əməlli-başlı silkələmişdi. Qəza nəticəsində Azərbaycanın enerji sistemində ciddi problemlər yaşanmış, Bakı və Gəncə də daxil olmaqla 39 şəhər və rayonun elektrik enerjisi kəsilmiş, dövlətə və əhaliyə böyük ziyan dəymişdi.

O zaman Azərbaycanı zülmətə qərq edən qəzanın səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə elə həmin gün ölkə Prezidenti tərəfindən Baş nazirin 1-ci müavini Yaqub Eyyubovun rəhbərliyi ilə Dövlət Komissiyası yaradılmışdı. Azərbaycan Prezidenti tərəfindən Dövlət Komissiyasına təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunması məqsədilə hadisənin baş vermə səbəblərini araşdıraraq obyektiv rəy hazırlanması və gələcəkdə belə halların təkrarlanmaması üçün təkliflərin verilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görülməsinə dair tapşırıqlar verilmişdi. Həmin vaxt ölkənin elektriklə təminatına məsul olan "Azərenerji"nin rəhbərliyi Mingəçevirdəki İES-də baş vermiş qəzanın "yayın çox isti keçməsi və nəticədə kondisionerlərdən çox istifadə olunması" ilə əlaqəli olduğunu bildirmişdi. İki gün davam edən enerji böhranından sonra ölkə başçısı iyulun 4-də keçirdiyi müşavirədə bu səbəbi qəbul etməmiş və bildirmişdi ki, "ölkənin enerji sektoruna yüksək məbləğdə investisiya qoyulub və isti havalarla bağlı istehlakın artması qəzanın səbəbi ola bilməz". Həmin müşavirədə Prezident "Azərenerji"nin rəhbərini danlamışdı. "Siz, sadəcə olaraq, utanmalısınız, xalq qarşısında, ölkə qarşısında. Bu isti havada insanlara bu qədər əziyyət vermisiniz. İqtisadiyyata nə qədər böyük ziyan vurmusunuz", - dövlət başçısı belə demişdi.

O zamankı baş prokuror Zakir Qaralov da müşavirədəki çıxışında ittihamları birbaşa "Azərenerji"yə yönəldərək demişdi: "Son üç ildə "Azərenerji"yə dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, qurum bu barədə tədbirlər görməyib". Qaralov əlavə etmişdi ki, məsələni araşdırmaq üçün Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Baş Prokurorluğun əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb, yanğın təhlükəsizliyi qaydalarını pozma, vəzifədən suiistifadə etmə və səhlənkarlıq maddələri ilə cinayət işi qaldırılıb.



Gözləmək olardı ki, Zakir Qaralovun qeyd etdiyi cinayət işi üzrə əsas cavabdeh şəxs kimi Etibar Pirverdiyev məsuliyyətə cəlb olunacaq. Lakin bu, baş vermədi. Sabiq "işıq şefi" vəzifəsini itirməklə canını qurtardı. Bundan sonra onun biznesi üçün də ağır günlər başladı. Son vaxtlar isə Pirverdiyevin yenidən dirçəlməyə çalışdığı, bu məqsədlə müəyyən təşəbbüslər etdiyi barədə xəbərlər gəlirdi. Ancaq Qusar stadionu ilə bağlı xəbər sabiq ASC sədri üçün ağır günlərin davam elədiyini düşünməyə əsas verir...

***Toğrul Əliyev***



## Xankəndini Ermənistanla birləşdirən yeni yol istifadəyə verildi

***Xankəndini Ermənistanla birləşdirən və Laçın şəhərindən yan keçən yeni Şuşa-Gorus avtomobil yolu bu gündən hər iki istiqamətdə açıqdır.***

Bu barədə Qarabağdakı separatçıların nümayəndəsi Ermənistanın "Nyus.am" agentliyinə bildirib.

O deyib ki, vətəndaşların sərbəst və təhlükəsiz hərəkəti Rusiya sülhməramlıları tərəfindən təmin edilir.

Azərbaycan tərəfi Laçın şəhərinə daxil olmayan yeni avtomobil yolunun tikintisinə 2021-ci ilin iyul ayında başlamışdı.

Rəsmi məlumata görə, yolun ümumi uzunluğu 32 kilometr təşkil edir (onun 10 kilometri Ermənistan ərazisində yerləşir) və III texniki dərəcəyə uyğun layihələndirilib.

Yoxuşlarda 3, digər hissələrdə 2 hərəkət zolaqlı olan yolun layihə üzrə hərəkət hissəsinin eni 7-10,5 metr təşkil edir.

Xatırladaq ki, Qarabağdakı ermənilər indiyə kimi Ermənistanla Laçın şəhərindən keçən "dəhliz" vasitəsilə əlaqə saxlayırdılar. Bu səbbədən də "Laçın dəhlizi" Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində idi. "Laçın dəhlizi" boyunca yerləşən Laçın şəhəri, Zabux və Sus kəndlərində ermənilər qanunsuz məskunlaşma həyata keçirmişdilər.

"Laçın dəhlizi" 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən, bu gündən Azərbaycan tərəfinin nəzarətinə keçib. Nəticədə Laçın şəhəri, Zabux və Sus kəndlərində məskunlaşan ermənilər həmin yerləri tərk etməl məcburiyyətində qalıblar.

## İrandan Azərbaycana narkotik keçirilməsinin qarşısı alındı

***Azərbaycan Dövlət Sərhəd Xidməti (DSX) və Dövlət Gömrük Komitəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin və tütün məmulatlarının qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından (İİR) Azərbaycana keçirilməsinin qarşısı alınıb.***

Bu barədə "Unikal"a DSX-nin Mətbuat Mərkəzindən məlumat verilib.

Bildirilib ki, avqust ayının 23-ü saat 23:10-da "Astara" sərhəd nəzarət şöbəsinin və Cənub Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən İrandan Azərbaycana keçərkən İİR vətəndaşı 1981-ci il təvəllüdlü Babaei Kousalari Sadegh Samadin idarə etdiyi "Dong-Feng" markalı 38-D-43910 dövlət nömrə nişanlı yük avtomobilinə birgə baxış keçirilərkən nəqliyyat vasitəsinin salonunda gizlədilən təxmini çəkisi 15 kq 64 qram narkotik vasitəyə bənzər maddələr (4085 qram metamfetamin, 7800 qram heroin, 2129 qram tiryək, 1050 qram marixuana) və 920 qutu "KENT" markalı siqaretlər aşkar olunaraq götürülüb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Kamran Əliyev azad edilmiş ərazilərdəki prokurorluqlarda olub



***Avqustun 24-də Baş prokuror Kamran Əliyev Baş Prokurorluğun rəhbər heyəti ilə birlikdə Şuşa, Xocavənd, Zəngilan və Qubadlı rayon prokurorluqlarının fəaliyyəti ilə yerində tanış olmuşdur.***

”Unikal” xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatında bildirilir.

Rayon prokurorluqlarının işğaldan azad edilmiş ərazilərdə növbətçilik əsasında fəaliyyət göstərmələri üçün ayrılmış inzibati binalarda yaradılan xidməti şəraitlə tanış olan Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara xidməti ərazilərində hüquq qaydasının möhkəmləndirilməsi, prokuror təsir tədbirlərindən istifadə edərək aidiyyəti dövlət qurumları ilə birlikdə aparılan quruculuq işlərinə dəstək göstərməklə bağlı tapşırıq və tövsiyələrini verib.

Həmçinin, Baş prokuror Kamran Əliyev və Baş prokurorun müavini-Respublikanın Hərbi Prokuroru Xanlar Vəliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 1 aprel 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında" Sərəncamı əsasında yaradılmış Qubadlı hərbi prokurorluğunda olmaqla əməkdaşlarla görüşüb, onların xidmət və məişət şəraiti ilə maraqlanıb.

Prokurorluğun əməkdaşları xidmətlərinin daha səmərəli və peşəkar təşkil edilməsi üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Ali Baş Komandan cənab İlham Əliyevə minnətdarlıqlarını bildirib.

# Yoluxma göstəriciləri süni şəkildə azaldılır - ÜST

***Son bir həftə ərzində dünyada koronavirusdan ölüm halları 15 faiz azalıb.***

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) avqustun 24-də yayımlanan son həftəlik hesabatında bildirilir.

Məlumata görə, ötən həftə 5,3 milyon yeni yoluxma və 14 mindən çox ölüm faktı qeydə alınıb.

Bildirilib ki, Afrikada ölüm halları 183 faizdən çox artıb, Avropada bu göstərici 30 faizdən çox, Amerikada isə 15 faiz azalıb.

Bununla belə, ÜST xəbərdarlıq edir ki, COVID-19-a yoluxma göstəriciləri süni şəkildə azaldılıb, çünki bir çox ölkə virusun monitorinqi üçün test yoxlamalarından və epidemioloji nəzarət protokollarından imtina edib.

# “İrəli”yə sədr seçildi



***“İrəli” İctimai Birliyinin VIII hesabat-seçki konfransı keçirilib.***

Konfransda dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri, millət vəkilləri, media mənsubları və 500-ə yaxın gənc iştirak edib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Hesabat-seçki konfransının gündəliyinə 2 əsas məsələ daxil edilib. Əvvəlcə Birliyin ümumi yığıncağında təşkilatın son iki ildəki fəaliyyətinə dair hesabat məruzəsi dinlənilib, habelə yeni tərkibdə İdarə Heyətinin seçilməsi məsələsi müzakirə olunub.

Yeni tərkibdə İdarə Heyəti formalaşdıqdan sonra İdarə Heyətinin sədri vəzifəsinə seçkilər keçirilib.

Səsvermənin nəticələrinə əsasən, hazırki sədr Şahin Rəhmanlı yenidən növbəti iki il müddətinə təşkilatın İdarə Heyətinə rəhbərlik edəcək.

Xatırladaq ki, “İrəli” İctimai Birliyi 26 avqust 2003-cü ildə ümumrespublika gənclər hərəkatı kimi fəaliyyətə başlayıb, 24 dekabr 2008-ci ildə isə gənclər təşkilatı olaraq təsis edilib. Təşkilatın əsas məqsədi sağlam, vətənpərvər və rəqabətədavamlı gənclər şəbəkəsi yaratmaqla dövlət gənclər siyasətinə töhfə verməkdir.

# Sabiq nazir oğluna böyük şok...

## Arif Rəhimov milyonluq layihələrdən kənarlaşdırılır?

***Mərhum gənclər və idman naziri Azad Rəhimovun oğlu Arif Rəhimovla bağlı maraqlı iddia ortaya atılıb. Bildirildiyinə görə, o, dövlət tərəfindən maliyyələşdirilən bəzi layihələrdən kənarlaşdırılacaq.***

Söhbət ilk növbədə “Formula-1” üzrə Bakı Qran-prisindən gedir. Məsələ burasındadır ki, atasından qalan böyük biznesin hazırda əsas idarəçisi olan Arif Rəhimov eyni zamanda 2014-cü ilin yanvarında yaradılmış “Baku Grand Prix” şirkətinin rəhbəridir. Bu şirkət 2016-cı ildən etibarən Bakıda keçirilən və dünyada avtomobil idmanının ən bahalı növlərindən biri sayılan ”Formula 1” üzrə “Qran Pri” yarışının təşkilatçısıdır. Hələ 2015-ci ildə xarici mətbuata verdiyi müsahibəsində “Baku Grand Prix” şirkətinin rəhbəri Arif Rəhimov bu yarışın Bakıda ən yüksək səviyyədə keçəcəyinə əminliyini ifadə etmişdi.



Qeyd edək ki, Azərbaycan postsovet məkanında Rusiyadan sonra “Formula 1” yarışına ev sahibliyi edən ikinci ölkə statusuna sahibdir.

Maraq üçün bildirək ki, Arif Rəhimov sabiq gənclər və idman nazirinin yeganə övladıdır. Orta məktəbi Bakıda bitirən, daha sonra Azərbaycan Dövlət İqtisad Universitetində oxuyan oğul Rəhimov ardından ali təhsilini İngiltərənin paytaxtında davam etdirib. Azərbaycan, rus və ingilis dillərini bilir. O, 2011-2012-ci illərdə Londondakı Cass Business School-da neft və energetika sənayesi ixtisasına yiyələnib.

2009-cu ilin oktyabrından 2011-ci ilin noyabrınadək Azərbaycan Dövlət Neft Şirkətində maliyyə meneceri vəzifəsində işləmiş Arif Rəhimov sonradan DDLAR GROUP adlı özəl şirkəti qurub və hazırda da ona rəhbərlik edir.

Oğul Rəhimov evlidir və əsasən Londonda yaşayır.

Düzdür, “Baku Grand Prix” şirkəti indiyədək “Formula-1”in Bakı Qran-prisinin təşkilatçılığını layiqincə bacarıb, lakin iddialar oğul Rəhimovun hətta adıçəkilən şirkətin rəhbərliyindən uzaqlaşdırıla biləcəyi yönündədir. Həmçinin, ona məxsus şirkətlərin dövlət investisiya layihələrində iştirakına da “qırmızı işıq” yandırılacağı güman olunur. Deyilənlərə inansaq, səbəb təzəlikcə onun mərhum atasının sağlığında Gənclər və İdman Nazirliyində (AGİN) ciddi korrupsiyaya yol verilməsinin rəsmən təsdiqlənməsidir. Xatırladaq ki, ötən həftə Hesablama Palatasının adıçəkilən nazirlikdə apardığı auditin nəticələri açıqlandı. Bu barədə yayımlanan hesabatdan belə aydın oldu ki, mərhum Azad Rəhimovun rəhbərlik etdiyi dövrdə AGİN-də çoxsaylı yeyintilərə yol verildiyi barədə mətbuatda və cəmiyyət arasında dolaşan iddialar tamamilə doğru imiş. Üstəlik, bu yeyintilərin miqyası da yazılıb-pozulanlardan, söylənilənlərdən xeyli genişdir.

Lakin eks-nazirin oğlu ilə bağlı məsələ birbaşa bu hesabatdan qaynaqlanmır. İddialara görə, onun şirkətlərinə də AGİN xətti ilə bu və ya digər formada xeyli vəsait yönəldilib. Üstəlik, bu vəsaitlər bir çox hallarda şişirdilmiş olub. Belə hallar hesabatda yer almasa da, gələcəkdə ayrıca araşdırma mövzusuna çevrilə bilər. Bir sözlə, söylənilənlərə inansaq, mərhum nazirin vəzifədə olduğu dövrdə Gənclər və İdman Nazirliyində dərin kök salmış korrupsiyadan onun oğlu da dolayısı ilə faydalanıb. Üstəlik, Rəhimovların ailə biznesinin mərhum Azad müəllim nazir olarkən xeyli genişləndiyi və gücləndiyi onsuz da kimsəyə sirr deyil. Bunda isə AGİN-də dövlət vəsaitlərinin qeyri-şəffaf, əksər zamanlarda təyinatsız xərclənməsinin, qısası, mənimsəmə predmetinə çevrilməsinin rolu az olmayıb. Həmin vəsaitlərin bir qismi bu və ya digər yolla Rəhimovların “biznes imperiyasının” böyüməsinə yönəldilib.

Məsələn, Bakının müxtəlif rayonlarında tikilən “Premium” və “De Lüks” sinifli yaşayış kompleksləri sabiq nazirin oğluna məxsus DDLAR GROUP-un məhsuludur. Amma bir sual açıq qalır: həmin şirkəti yaratmamışdan əvvəl sadəcə iki il - 2009-cu ilin oktyabrından 2011-ci ilin noyabrınadək Dövlət Neft Şirkətində maliyyə meneceri vəzifəsində işləyən Arif Rəhimov belə geniş biznes layihələrini həyata keçirmək üçün ilkin maliyyəni haradan əldə edib?!

Yaxud, Bərdə, Şirvan, Xaçmaz, Daşkəsən, İmişli, Cəlilabad, Mingəçevir, Ağcabədi, Tovuz və Göygöl rayonlarındakı idman olimpiya kompleksləri (İOK) məhz DDLAR GROUP tərəfindən layihələndirilib və tikilərək istifadəyə verilib. Komplekslərin inşası ilə bağlı sifarişin necə, hansı səbəblər və şərtlərlə bu şirkətə verildiyi uzun zamandır sirr olaraq qalır. Lakin məsələ mərhum nazirin külli miqdarda dövlət vəsaiti hesabına ərsəyə gələn İOK-ların tikintisini öz oğlunun şirkətinə həvalə etməsi ilə yekunlaşmır. Ortada başqa qaranlıq nüanslar da var. Misal üçün, quruluş etibarilə az qala bir-birinin təkrarı olan həmin komplekslərin hər birinin başa gəlmə xərcləri arasında da kəskin uçurum var. Bir az da dəqiqləşdirək: Qəbələ Olimpiya İdman Kompleksinin tikintisinə 11 milyon xərcləndiyi halda, Şirvan Olimpiya Kompleksinə 6,8 milyon, Xaçmaz İdman Kompleksinə isə 8 milyon manat xərclənib. Fikrimizcə, əlavə şərhə ehtiyac yoxdur...

İddialar belədir ki, yuxarıda sadalananlar, eləcə də onlara bənzər çoxsaylı müəmmalı məqamlar Arif Rəhimovun bundan sonra dövlət tərəfindən maliyyələşdirilən layihələrdə iştirakını mümkünsüzə çevirir.

Xatırladaq ki, Azad Rəhimov ötən il aprelin 30-da 57 yaşında vəfat edib.

***Sənan Mirzə***

# Məmurların yaratdığı yeni təhlükə

## Azərbaycanda ətin bahalaşmasının daha bir ilginc (və önəmli!) səbəbi var imiş...



***Bu yaxınlarda açıqlanan rəsmi rəqəmlərə görə, 2022-ci il iyul ayının 1-i vəziyyətinə ölkədə iribuynuzlu mal-qaranın sayı 2 milyon 654 min 474 baş olub. Ötən ilin müvafiq dövründə bu rəqəm 2 milyon 663 min 658 baş təşkil etmişdi. Bir sözlə, ölkəmizdə bu il ötən ilə nisbətən iribuynuzlu mal-qaranın sayı 0,3 faiz azalıb.***

Daha bir maraqlı, elə bir o qədər də düşündürücü statistika: bu ilin yanvar-iyun aylarında Azərbaycana 20,1 min ton ət idxal olunub. İdxal edilən ətin dəyəri isə 33,9 milyon dollar təşkil edib. Halbuki 2021-ci ilin eyni dövründə dəyəri 31,8 milyon dollar olmaqla 18,3 min ton ət idxal edilmişdi.

Rəqəmlərdən də göründüyü kimi, xoşagəlməz tendensiya yaranıb: ölkədə iribuynuzlu mal-qaranın sayı azalır, idxal edilən ətin həcmi isə artır. Və bu tendensiyanın fonunda dana ətinin qiymətindəki bahalaşma təəccüb doğurmamalıdır. Belə ki, qiymətlərdə 50 qəpik, 1 manat artım var. 1 kiloqram sümüklü dana əti 12 manata satılır. Sümüksüz dana əti isə 15 manat olub. Şübhəsiz, burada obyektiv və subyektiv amillər rol oynayır. Məsələn, satıcılar deyirlər ki, rayonlarda danalar bahalaşdığı üçün ətin qiyməti də qalxıb. Onların sözlərinə görə, yay fəslində mal qıtlığı var, amma ola bilər payızda qiymətlər aşağı düşsün.

İqtisadçı Natiq Cəfərli isə bu günlərdə bildirib ki, dana ətinin bahalaşması əsasən yemin qiymətinin qalxması ilə bağlıdır: "Digər tərəfdən, bu artıma baytarlıq xidmətlərinin, dərmanların, iynələrin bahalaşmasının da təsiri var. Bundan əlavə, əgər digər məhsulların qiyməti qalxırsa, ət istehsalçıları da öz ehtiyaclarını ödəmək üçün qiyməti qaldırmaq məcburiyyətindədirlər. Ölkədə rəsmi olaraq 13 faizlik ümumi inflyasiya, 20 faizə yaxın ərzaq inflyasiyası varsa, ət istehsalçıları daha çox pul qazanmağa çalışmalıdırlar ki, inflyasiya ilə ayaqlaşa bilsinlər. Ona görə də digər sahələrdə qiymət artırsa, təkcə ətin qiymətinin qalxmaması məntiqsizlik olardı..." Ekspert bildirib ki, dünya bazarlarında da yemin qiymətində kifayət qədər bahalaşma var: "Son 1 ildə əsasən qarğıdalı, arpa və digər dənli bitkilərin qiymətində 40 faizə yaxın bahalaşma var. Bu, Azərbaycana təsirsiz ötüşmür. Ölkə daxilində yem istehsalçıları da qiymətləri qaldırırlar".

Lakin ətin qiymətindəki bahalaşma ilə bağlı bir məqam da unudulmamalıdır - məmur faktoru!

Əvvəla, uzun müddətdir media, ekspertlər təəssüf hissi ilə yazır, bildirir ki, heyvanların qidalanmasında əsas yer tutan ot və ot bağlamalarının bahalaşmasında subyektiv amillərin də rolu var, məsələn, son illərdə biçənək sahələrinin böyük bir hissəsinin əkin altına salınması kimi! Bir çox məmurlar, xüsusilə də bu sahəyə məsul qurumların və yerli icra hakimiyyətlərinin rəhbərləri rayonlarda əsas biçənək, otlaq ərazilərini, qışlaqların yerləşdiyi sahələri ucdantutma əkin sahələrinə çevirirlər. Halbuki dövlət başçısının çıxışlarında aqrar istehsalda yüksəlişə ekstensiv - əkin sahələrinin genişləndirilməsi deyil, intensiv - yeni məhsuldarlığı artırmaq yolu ilə nail olunmasının vacibliyi dəfələrlə vurğulanıb. Eyni zamanda şoranlaşmış, yaxud bataqlığa çevrilmiş ərazilərin əkinə yararlı vəziyyətə gətirilməsinin vacibliyi qeyd olunub. Lakin xüsusilə yerli məmurlar bu çağırışları görməzdən gələrək, bütün gücü əkin sahələrinin genişləndirilməsinin heyvandarlığı sıxışdırmaq bahasına başa gəlməsinə yönəldiblər. Heyvandarlıqla məşğul olan fermerlər xeyli vaxtdır bununla bağlı etirazlarını dilə gətirirlər, lakin təəssüf ki, bu etirazlar ciddi nəticə verməyib.

Digər tərəfdən, heyvandarlıq üçün əlverişli rayonlarda örüş sahələri böyük ölçüdə yerli məmurların nəzarətinə keçib. Əhalinin mal-qara hesabına dolandığı elə rayonlar var ki, orada örüşləri hansısa vəzifəli şəxs qamarlayıb, özləri üçün müxtəlif təsərrüfatlar qurublar. Belə sahələrin fərqli təyinatı, kartofdan tutmuş taxılacan bir çox məhsulların becərilməsi üçün istifadə olunduğunun çoxsaylı örnəkləri var. Nəticədə sadə vətəndaşların heyvandarlıqla məşğul olmaq imkanları zəifləyir.

Bircə faktı xatırladaq: təxminən iki il öncə mediada Zərdabın Şahhüseynli kənd sakinlərinin narazılığı geniş işıqlandırılmışdı. Sakinlər bildirmişdilər ki, uzun illərdir faktiki istifadələrində olan örüş sahələri rayonun vəzifəli şəxsləri tərəfindən hissə-hissə olmaqla dörd nəfərə satılıb. Həmin şəxslər bu ərazilərin bir hissəsində fermalar tikib, bir hissəsini əkin sahələrinə çeviriblər. Bununla da kəndlilərin əsas məşğuliyyəti və dolanışıq yeri olan heyvandarlıq iflasa uğrayıb. Heyvan saxlamaq üçün şəraiti olmayan kəndlilərin bir qismi heyvanlarını satmaq məcburiyyətində qalıb. Tövlələrdə saxlanan heyvanlardansa əvvəlki kimi ət, süd, bala götürmək mümkün deyil. Kənd sakinlərinin sözlərinə görə, bu problemləri ictimailəşdirmək istəyəndə rayondakı vəzifəlilərin təhdidləri ilə üzləşirlər!

Bənzər hallar bir çox rayonlar üçün xarakterikdir. Yəni ölkədə mal-qara sayının azalması, ət idxalının artması, ətin qiymətlərindəki bahalaşmada hər nə qədər qlobal amillər rol oynasa da, bu məsələdə elə bir o qədər də yerli faktorlar, subyektiv amillər, bir az da dəqiqləşdirsək, məmur tamahkarlığı, vəzifəli şəxslərin heyvandarlıqla məşğul olanlara qarşı özbaşına, ədalətsiz davranışı rol oynamaqdadır. Bu zərərli "ənənəyə" son qoyulsa, ölkədə heyvandarlığın inkişafı üçün ciddi stimul yaranacaq, beləcə, əhalinin öz cibinə uyğun qiymətlə və yüksək keyfiyyətli ət almaq arzusu da böyük ölçüdə reallaşacaq...

***Sənan Mirzə***



# Baş nazirdən qida normaları ilə bağlı qərar

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarında dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov Qərar imzalayıb.

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissəyə "evlərində" sözündən sonra "və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində" sözləri əlavə edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ahıllar, əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün sosial xidmət müəssisələrində, həmçinin ağıldankəm uşaqlar üçün internat evlərində vətəndaşların qida normaları" üzrə:

2.1. adına "evlərində" sözündən sonra "və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST İnklüziv İnkişaf və 2 Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində" sözləri əlavə edilsin;

2.2. cədvəldən sonrakı mətnin ikinci abzasına ikinci halda "bərpa mərkəzinə" sözlərindən sonra "və DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinə (gün ərzində bir dəfə nahar zamanı yeməklə təmin olunma nəzərə alınmaqla xidmətə götürülmüş böyüklər üçün 3-cü sütun, uşaqlar üçün 6-cı sütun)" sözləri əlavə edilsin.

# Xankəndidə güclü partlayış oldu

***Xankəndidə güclü partlayış baş verib.***

"Unikal" xəbər verir ki, partlayışa dair görüntülər istifadəçilər tərəfindən sosial şəbəkənin erməni seqmentində paylaşılır.

Hələlik partlayışın dəqiq səbəbləri bilinmir. Bir sıra teleqram kanalları isə partlayışın qaz balonunun partlaması nəticəsində baş verə biləcəyini qeyd edirlər.



## Snayperçilərimiz hədəfləri sərrast atəşlə məhv ETDİ

*Azərbaycan snayperləri hədəfləri sərrast atəşlə məhv edib.*

Bu barədə ”Unikal”-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, İran İslam Respublikasının Yəzd şəhərində keçirilən ”Snayper həddi” müsabiqəsi davam edir.

Avqustun 25-də müsabiqənin üçüncü mərhələsi üzrə tapşırıqlar yerinə yetirilib. Mərhələnin ilk çalışmasının tələblərinə uyğun olaraq komanda şəklində fəaliyyət göstərən snayperlərimiz 300-600 metr məsafədə peyda olunan hədəfləri sərrast atəşlə məhv ediblər. Növbəti çalışma zamanı birinci snayper cütlüyü 150-200 metr aralıqda olan hədəfə atəş açılması, eləcə də silahlarla 300 metrlik məsafənin qaçaraq dəf edilməsi tapşırıqlarını yerinə yetiriblər. Daha sonra ikinci snayper cütlüyü 300-600 metr məsafədə peyda olan xüsusi hədəfləri məhv etməkdə bacarıqlarını nümayiş etdiriblər. Müsabiqə iştirakçıları qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirir.

## Əli Əsədov Belarusun Baş naziri ilə GÖRÜŞÜB

***Baş nazir Əli Əsədov avqustun 25-də Qırğız Respublikasına işgüzar səfəri çərçivəsində Çolpon-Ata şəhərində Belarus Respublikasının Baş naziri Roman Qolovçenko ilə görüşüb.***



Nazirlər Kabinetindən ”Unikal”-a verilən xəbərə görə, görüşdə Azərbaycan ilə Belarus arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə edilib.

Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Gədəbəyin Baş planı təsdiqləndi

***Gədəbəy şəhərinin 2039-cu ilədək inkişafına dair Baş planı təsdiq edilib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

**ELAN!**

**Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev-26 ünvanında yerləşən “AZİNKO” tikinti şirkətinə aid yaşayış binasının yeraltı avtomobil dayanacağında İbrahimova Turan Pirəli qızına məxsus 316 nömrəli qarajın sənədi itdiyi üçün etibarsız sayılır.**

# Vahid Ələkbərovdan gözlənilməz gediş...

## Məşhur milyarderin Azərbaycandakı bankında səhmdarlar niyə dəyişdi?



***Yola salmaq üzrə olduğumuz həftə “Yelo Bank” ASC-nin səhmlərinin 95,7%-nə nəzarət edən “Topaz Investments” MMC-nin payının 94,7%-lik hissəsi digər səhmdara - Marina Kulişovaya ötürülüb.***

Bununla da, onun payı 4,2%-dən 98,9%-ə çatdırılıb.

Qalan 1%-lik hissəni isə “Yelo Bank”ın İdarə Heyətinin sədri Anar Həsənov əldə edib. Bankın səhmlərinin 0,1%-i isə əvvəlki kimi “ISR Holdinq” MMC-yə məxsusdur.

M.Kulişova ”Yelo Bank”ın Müşahidə Şurasının sədri, həm də “Topaz Investments”in direktorudur.

”Yelo Bank” 1994-cü ildən fəaliyyət göstərən ”Nikoil Bank” ASC-nin bazasında 2019-cu ildə yaradılıb. Onun nizamnamə kapitalı 378 milyon manatdır.

Bildirək ki, “Yelo Bank”a birbaşa olaraq fiziki şəxs, azərbaycanlı milyarder, “Lukoil” Neft Şirkətinin prezidenti Vahid Ələkbərov nəzarət edir. Bir neçə gün əvvələdək bankın səhmlərinin 96%-i “Topaz İnvestments Limited” QSC şirkətinə, 3,9%-i Marina Kulişova Valeryevnaya, 0,1% pay isə “İsr Holding”ə məxsus olub.

Marina Kulişova Valeryevna bankda səhmdar, həm də Vahid Ələkbərovun “Topaz İnvestments” şirkətinin direktoru və “Yelo Bank”ın müşahidə şurasının sədridir.

2016-cı ildən ciddi struktur dəyişikliyinə gedən “Yelo Bank” səhmdarların pay bölgüsündə dəyişmələr həyata keçirib. 2016-cı ilin sonunda bankda 91.84% paya sahib olan “Topaz İnvestments” şirkəti 2017-ci ildə 93,16%-lə, sonradan isə 96%-lə “Yelo Bank”da əsas səhm sahibi idi. Həmin ildə “Nikoil” QSC bankdakı 7,98% payını Marina Kulişova Valeryevnaya satdı. 2017-ci ildə isə azərbaycanlı milyarder İsgəndər Xəlilov isə bankdakı payını 0,19%-dən 0,16-ya saldı. Hazırda onun (İsr Holdinqin)

yuxarıda da vurğuladığımız kimi, bankda 0,1% payı var.

Vahid Ələkbərova məxsus bank uzun illər faktiki olaraq talan edilib. Yerli media yazır ki, proses hələ 2005-ci ildən başlayıb. 12.5 il əvvəlki “Nikoil” İKB-a sədrlik edən Vasiliy Xamaza adıçəkilən bankın 20 milyon manatını mənimsəməkdə ittiham olunmuşdu. 2017-ci ilin yarısına kimi banka sədrlik etmiş V.Xamaza Azərbaycanı tərk edib. Federal və beynəlxalq cinayət axtarışına verilən Xamaza 2018-ci ilin sentyabr ayında Moskva şəhərində hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb.

Daha sonra banka Gürcüstan vətəndaşı Nikoloz Şurqaia sədr təyin olunub ki, o da bankın vəsaitlərini müxtəlif yollarla talayaraq mənimsəyib. Bəzi KİV-lərin bu barədə dəfələrlə yazmasına baxmayaraq, Vahid Ələkbərov və bankın idarəçiliyinə məsul və həmçinin bankın səhmdarı Marina Kulişova Valeryevna heç bir reaksiya verməyib.

Bankın idarə heyətinin sədri Nikoloz Şurqaia banka rəhbər təyin olunduğu ildən 2021-ci ilədək “Nikoil Bank”, yəni hazırkı “Yelo Bank”ın rüblük və illik hesabatları zərərlə yekunlaşıb.

Son iki ildə V.Ələkbərov bankın fəaliyyəti ilə daha yaxından maraqlanmağa başlayıb. Bu isə adıçəkilən qurumda işlərin xeyli dərəcədə yaxşılaşmasına gətirib çıxarıb. Düzdür, 2022-ci ilin ikinci rübü üzrə açıqlanan bəzi maliyyə nəticələrinə görə, “Yelo Bank”ın xalis mənfəəti ötən ilin eyni dövrünə nisbətən 4 dəfədən çox azalıb, bununla belə, onun cəmi aktivləri ötən ilin sonu ilə müqayisədə 40% artaraq 750 milyon manatı ötüb. Hesabat dövrü üzrə Bankın xalis faiz gəlirləri isə 2021-ci ilin analoji dövrü ilə müqayisədə 18% artaraq 25 milyon manatdan çox olub. Bank qeyri-faiz gəlirlərinin ötən ilin eyni dövrü ilə müqayisədə 4,3 dəfə artdığını qeyd edib və s.

Sual doğuran isə odur ki “Topaz Investments” MMC-nin “Yelo Bank”dakı payının 94,7%-lik hissəsi niyə digər səhmdara - Marina Kulişovaya ötürülüb. Səhmdar dəyişikliyinin səbəbi açıqlanmadığından bu qərarın səbəbi barədə nəsə demək olmur, istənilən halda isə V.Ələkbərovun belə bir gedişi gözlənilməz, elə bir o qədər də maraqlıdır. Düzdür, onun şirkəti bankdakı payını başqa birinə ötürüb, lakin əsas səhmdara çevrilən Kulişovanın elə həmin şirkətə rəhbərlik elədiyini də unutmayaq. Yeni bəzilərinin düşündüklərinin əksinə, V.Ələkbərovun “Yelo Bank”dan geri çəkildiyini düşünmək tezdir.

İstənilən halda isə məşhur milyarderin məlum addımla nəyi hədəflədiyi bəlli deyil. Səhm payındakı dəyişikliyin “Yelo Bank”da uzun aradan sonra müşahidə edilən müsbət tendensiyaya hansı istiqamətdə - müsbət, yoxsa mənfi təsir edəcəyini isə zaman göstərəcək...

***Toğrul Əliyev***

## 6.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionların sosial-iqtisadi inkişafından böyük gözləntilər var

***Azərbaycanda sosial-iqtisadi inkişafın davamlılığının təmin olunmasında ölkənin regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının qəbul olunması və həyata keçirilməsinin müstəsna əhəmiyyəti var.***



Regional inkişafla bağlı dövlət proqramları çərçivəsində qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə regionlarda sənaye parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində xeyli işlər görülüb.

İqtisadiyyat Nazirliyindən "Unikal"a verilən məlumata görə, hazırda Azərbaycanda regionların inkişafı siyasəti əsas etibarilə milli səviyyədə hazırlanan regional inkişaf proqramlarına əsaslanır. Bu proqramların icrası nəticəsində regionlarda sosial və fiziki infrastruktur sahələrinin inkişafı, beynəlxalq standarlara uyğun yeni müəssisələrin və iş yerlərinin yaradılması, əhalinin rifahının yüksəldilməsi istiqamətində irimiqyaslı işlər görülmüş və əhəmiyyətli sosial-iqtisadi nəticələr əldə olunmuşdur.

Dövlət Proqramı çərçivəsində regionlarda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi, mütərəqqi texniki avadanlıqlar və texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsi və təsərrüfat dövriyyəsinə mümkün qədər daha tam cəlb olunması nəzərdə tutulub. Həmçinin proqramda iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi və səmərəliliyin yüksəldilməsi hesabına rəqabətqabiliyyətliliyin artırılması qeyd olunub. Mühüm növ ərzaq məhsulları ilə ölkənin özünütəminetmə səviyyəsinin yüksəldilməsi, ekoloji təmiz məhsul istehsalının artırılması, regionlarda məşğulluq imkanlarının artırılması, sahibkarlığın, o cümlədən KOB-ların inkişafının sürətləndirilməsi, onların maliyyə dayanıqlılığının möhkəmləndirilməsi proqramda öz əksini tapıb. KOB-ların inkişafı sahəsində dövlət qurumları tərəfindən sahibkarlara vahid məkanda daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə xidmətlərin göstərilməsinin təmin edilməsi, regionların inkişaf potensialının reallaşdırılmasına dəstək məqsədilə yeni KOB-ların yaradılması, mövcud KOB-ların inkişafı, dövlət dəstək mexanizmlərinə KOB-ların rahat çıxışını təmin edəcək KOB Dostları şəbəkəsinin ölkə üzrə formalaşdırılması və səmərəli fəaliyyətinin təmin edilməsi, regionlarda müxtəlif turizm növlərinin inkişafının dəstəklənməsi, o cümlədən turizm sahəsində göstərilən xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması proqramın tərkib hissəsidir. Sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və aztəminatlı insanlar üçün əlçatanlığının təmin edilməsi, regionların dayanıqlı inkişafının təmin olunması, yaşayış üçün rahat şərait yaradılması, bölgələrdə, o cümlədən kənd yerlərində yaşayış tərzinə müsbət münasibətin formalaşdırılması, regionlarda əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluğun azaldılması, o cümlədən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi nəzərdə tutulub. Regionlarda bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, paytaxtla regionlar arasında sosial-iqtisadi inkişaf səviyyəsində bərabərsizliyin daha da azaldılması, regionlarda təhsil, səhiyyə və digər sosial xidmətlərin səviyyəsinin yaxşılaşdırılması istiqamətində stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, yaşayış evlərinə göstərilən kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlərin davam etdirilməsi və kommunal xidmət haqları üzrə istehlakçıların ödəniş imkanlarının genişləndirilməsi, regionlarda texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ istilik mənbələri ilə təminatı, kəndlərdə yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması prioritetlərdəndir.

Regionlarda işləməyən və ya zərərlə işləyən istehsal müəssisələrinin yenidənqurulması, sağlamlaşdırılması və özəlləşdirilməsinin sürətləndirilməsi, yerlərdə müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələri şəbəkəsinin genişlənməsinin dəstəklənməsi, kənd təsərrüfatında istehsalın intensiv usullarla artırılması üçün dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi nəzərdə tutulub. Regionlarda məhsul istehsalı və xidmət sahələrinin də inkişaf etdirilməsinin həvəsləndirilməsi mexanizmlərinin yaradılması, fermer tərəfdaşlığının və kənd təsərrüfatında kooperasiyanın inkişafının təşviqi proqramda qeyd edilib. Buraya həmçinin aqrar-sənaye inteqrasiyasının inkişafının dəstəklənməsi, innovativ təsərrüfatçılıq formalarının yaradılması və inkişafının dəstəklənməsi mexanizmlərinin həyata keçirilməsi, regionların inkişafı üzrə elmi tədqiqatların və kadr hazırlığının genişləndirilməsinin və keyfiyyətinin yüksəldilməsi üzrə işlək mexanizmlərin yaradılması, elmi-tədqiqat fəaliyyətlərinin praktika ilə əlaqələndirilməsinin dəstəklənməsi daxildir.

Məhsul və xidmət istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin daha da sağlamlaşdırılması, KOB-lara operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında şəhər və regionlarda xidmətlərin təşkili, sahibkarların və fermerlərin maliyyə resurslarına çıxış imkanlarının asanlaşdırılması, regionlarda sığorta sisteminin inkişaf etdirilməsi, bazarlara, o cümlədən ixrac bazarlarına çıxış imkanlarının asanlaşdırılması, bu istiqamətdə geniş və əhatəli təşviq tədbirlərinin gücləndirilməsi proqramda öz əksini tapıb. İstehsal, sosial və bazar infrastrukturunun modernləşdirilməsinə dəstək verilməsi, sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və təbii ehtiyatlardan səmərəli istifadə olunması və ekoloji təhlükəsizliyin qorunması üzərində nəzarətin gücləndirilməsi, bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi və dəstəklənməsi, eləcə də təhsil, səhiyyə və digər sosial xidmətlərin inkişafı məqsədilə mütəxəssislərin regionlara cəlb olunması üçün onların mənzil təminatı istiqamətində tədbirlərin görülməsi nəzərdə tutulub. Dövlət Proqramının icrasından gözlənilən nəticələr isə böyükdür. Regionların, o cümlədən kənd yerlərinin inkişaf potensialı güclənəcək iqtisadiyyat daha da şaxələndiriləcək, yeni müasir emal müəssisələri açılacaq, qeyri-neft sənayesi inkişaf edəcək. Yerli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi daha da artacaq, kənd təsərrüfatı məhsullarının istehsal və emal həcmində yüksək artım dinamikası əldə ediləcək.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Zəngilan aeroportunda uçuş yoxlamaları keçirilir

***Zəngilan beynəlxalq hava limanında uçuşların radiotexniki təminatı vasitələrinin uçuş yoxlamalarına başlanılıb.***

"Unikal" bu barədə "Azərbaycan Hava Yolları" QSC-yə istinadən xəbər verir.

Məlumata görə, uçuş yoxlaması ATR 42-500 biznes-sinif təyyarəsinin göyərtəsində quraşdırılmış tam avtomatlaşdırılmış Aerodata AD-FIS-112 kompleksindən istifadə edilməklə həyata keçirilir.

Zəngilan aeroportunun naviqasiya təminatı üçün lazımi mühüm beynəlxalq kodlar və ICAO, EUROCONTROL və IATA çağırış siqnalları artıq təyin edilib. Belə ki, bu kodlar və radiotezliklər hava hərəkətinə xidmətin təmin edilməsi, aviasiya meteoroloji məlumatının yayımlanması, rabitə, naviqasiya, radiolokasiya və digər sistemlərin istismara verilməsi üçün zəruridir. Bunun sayəsində naviqasiya avadanlığının beynəlxalq sistemə inteqrasiyası, müvafiq olaraq beynəlxalq uçuşların təhlükəsizliyi və yerinə yetirilmə müntəzəmliyi təmin edilir. Həmçinin hava limanının uçuşların aeronaviqasiya təminatı üzrə radiotexniki avadanlıqla təchiz olunması tam başa çatdırılıb.

Aeroportda CVOR/DME bucaqölçən və uzaqməsafəli radionaviqasiya avadanlığı, uçuş-enmə zolağında müşahidəni təmin etmək məqsədilə avtomatlaşdırılmış aviasiya meteoroloji sistemi (AWOS), ICAO CAT II kateqoriyası üzrə uçuşların təhlükəsizliyini təmin edən aerodrom işıq siqnalı avadanlığı və uçuş-enmə zolağının hər iki istiqamətində cihazlar üzrə enməyə daxilolma sistemləri quraşdırılıb, avtomatlaşdırılmış HHİ sistemləri, aviasiya yerüstü və hava rabitəsi vasitələri, həmçinin dispetçer danışıqlarının qeydiyyatı ilə təchiz olunmuş hava hərəkətini idarəetmə qülləsi (HHİ) inşa edilib, birinci və ikinci dərəcəli PSR/SSR kanalının radiolokasiya stansiyası quraşdırılıb, hava limanının elektrik təminatı yarımstansiyaları da inşa edilib.

Hava limanının gələn ay istismara verilməsi nəzərdə tutulur.



## Kəlbəcər və Laçında yeni təminat yolları çəkilib

***Kəlbəcər və Laçın rayonlarında 62 km-dən çox yeni təminat yolları çəkilib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, Kəlbəcər və Laçın rayonlarında Azərbaycan Ordusunun bölmələri tərəfindən aparılan dəqiqləşdirmələr nəticəsində nəzarətə götürülən bir sıra strateji əhəmiyyətli hakim yüksəkliklərdə mühəndis təminatı üzrə tapşırıqların icrası davam etdirilir.

Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində mürəkkəb relyefli, o cümlədən çətin keçilən qayalıq ərazilərdə bölmələrin fəaliyyətini təmin etmək məqsədilə ümumilikdə 62 km-dən çox yeni təminat yolları çəkilib.

Azad edilən ərazi və hakim yüksəkliklərdə mühəndis təminatı üzrə həyata keçirilən zəruri tədbirlər yüksək peşəkarlıqla yerinə yetirilir.

## "Lal", "kar", "kor" sözləri qanunvericilikdən çıxarıldı

***Son illər ölkəmizdə BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına uyğun şəkildə aparılan islahatlarla əlilliyi olan şəxslərlə bağlı qanunvericilikdə mühüm təkmilləşdirmələr aparılıb.***



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, təkmilləşdirmələrin bir istiqaməti kimi, qanunvericilikdə əlilliyi olan şəxslərə münasibətdə onlarda neqativ hisslər, özünə inamsızlıq yaradan bir sıra vulqar, bayağı, kobud ifadələr müasir və etik yanaşmaya uyğun yeni ifadələrlə əvəzlənib.

Bununla bağlı 40-dək qanunvericilik aktında dəyişiklik edilib və həmin dəyişikliklər təsdiqlənib. Belə ki:

"lal" sözü - "nitq qabiliyyəti tam məhdud olan" sözləri ilə,

"kor" sözü - "görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə,

"kar" sözü - "eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə,

"kəmağıllıq" sözü - "əqli gerilik" sözləri ilə,

"şikəst olan" sözləri - "əlilliyi müəyyən edilmiş" sözləri ilə,

"bədən qüsuru" sözləri - "fiziki çatışmazlıq" sözləri ilə,

"şikəstlik" sözü - "xəsarət" sözü ilə əvəz edilib.

Əvvəlki ifadələr əlilliyi olan şəxslərlə bağlı müəyyən mənfi stereotiplərin yaranmasına, onların sosial inteqrasiyasında çətinliklərə səbəb olurdu.

Əlilliyi olan şəxslərə münasibətdə istər danışıqda, istərsə də yazılı mətnlərdə yeni dəyişikliklərə uyğun ifadələrin işlədilməsi həmin şəxslərə, onların xüsusiyyətlərinə hörmətlə yanaşılmasını özündə ehtiva edir.

# Aqrar Sığorta Fondunun bölgələrdə filialları fəaliyyətə başlayır

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 19 avqust tarixli Fərmanı əsasında Aqrar Sığorta Fondu əhatə dairəsini genişləndirməkdədir. Dövlət dəstəyi ilə aqrar sığorta mexanizmini həyata keçirən Fondun bölgələrdə filialları fəaliyyətə başlayır.***

"Unikal" xəbər verir ki, Aqrar Sığorta Fondunun ilk filialı Göyçay rayonunda açılıb.

Şəhərin mərkəzində bütün fermerlərin rahat gəlib-gedəcəyi bir ünvanda - Natavan küçəsində fəaliyyətə başlayan filial fermerlərə müstəqil ekspertlərlə daha sıx və operativ əməkdaşlıq etmək imkanı yaradacaq.

Filialın açılış mərasimində çıxış edən Aqrar Sığorta Fondunun İdarə Heyətinin üzvü Roman Əmircanov bildirib ki, fondun bölgələrdə fəaliyyətə başlayacaq filialları fermerlərə aqrar sığorta sistemi ilə bağlı daha yaxşı xidmət göstərməyə, təsərrüfatlarda yaranan risklərə çevik reaksiya vermək imkanı yaradır.

Tədbirdə iştirak edən Göyçay Rayon İcra Hakimiyyətinin, Dövlət Aqrar İnkişaf Mərkəzinin nümayəndələri, Fondla əməkdaşlıq edən sığorta şirkətlərinin




təmsilçiləri, yerli fermerlər filialın açılışından məmnun olduqlarını, bundan sonra təsərrüfatlarını sığortalayanların sayının daha da artacağını bildiriblər.

Hazırda fond tərəfindən 48 məhsul və 29 risk üzrə sığorta təminatı təqdim olunmaqdadır. Bitkiçilik məhsulları bir çox risklərdən o cümlədən dolu, fırtına, qasırğa, sel və ya subasma, leysan, ildırım, şaxtavurma (donvurma), normadan artıq yağan qar yağıntıları və sair hallardan sığortalanır. Kənd təsərrüfatı heyvanlarının sığortlandığı risklər siyahısı da olduqca genişdir. Bura yoluxucu xəstəliklər, ilan və həşərat sancması, təbii fəlakətlər, zəhərli otlar və yemlərdən zəhərlənmə, vəhşi heyvanların hücumu, təbii fəlakətlər və yanğın, məcburi kəsim və s. risklər aiddir.

ASF kommersiya məqsədi daşımayan və könüllülük prinsipi əsasında fəaliyyət göstərən bir mexanizmdir. Fermerlər əkin sahələri və kənd təsərrüfatı heyvanlarının sığortası üzrə sığorta haqlarını və ödənişləri Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsində "Bitkiçilik kalkulyatoru" və "Heyvandarlıq kalkulyatoru" bölmələrində hesablaya bilərlər. Fermerlərə dəstək məqsədilə hesablanmış sığorta haqqının 50 faizini dövlət ödəyir. Fəaliyyət göstərdiyi qısa müddət ərzində aqrar sığorta sistemi ölkənin bütün bölgələrinə genişlənərək istehsal həcminin təxminən 95%-ini əhatə edə bilib.

Aqrar sığorta xidmətinin keyfiyyətini artırmaq, zərərlərinin qarşılanmasında istehsalçıların və fermerlərin məmnuniyyətini yüksəltmək, xidmətlərin daha əlçatan olması məqsədilə ilin sonuna qədər daha bir neçə bölgədə Aqrar Sığorta Fondunun filiallarının açılması nəzərdə tutulur.

# Qazlı içkilər xroniki xəstəliklər yaradır - Xəbərdarlıq

***Qazlı sulardan həzm prosesini sürətləndirmək, xoşbəxtlik hormonunu artırmaq və orqanizmin immun şəbəkəsini yüksəltmək üçün istifadə edilir.***

Mütəxəssislərin apardıqları apaşdırmalar nəticəsində məlum olub ki, həftə ərzində keyfiyyətsiz qazlı su içmək insanlarda asılılığın yaranmasına səbəb olur. Həmin içkilərin tərkibində olan limon turşusu mədənin fəaliyyətinə mənfi təsir göstərməklə yanaşı, mədə xorası və digər xəstəliklərin yaranmasına aparıb çıxarır.

Həkim-endokrinoloq Modern.az-a Aynur Muxtarova bildirib ki, qazlı içkilərin mütəmadi istifadəsi xroniki xəstəliklərə səbəb olur. Həmin xəstəliklər arasında, ilk növbədə, artıq çəkinin yaranması durur: "Araşdırmalar göstərir ki, mütəmadi qazlı içki qəbul edənlərdə piylənmə normal insanlara nisbətən 1,6 dəfə çoxdur. Qazlı içkilərin tərkibindəki şəkər qəbul edildikdən ani bir müddət sonra şəkərin yüksəlməsinə səbəb olur, nəticədə insulin rezistentliyi, gələcəkdə isə onun fonunda şəkərli diabet inkişaf edir".

Həkimlərin həmin içkilərin əvəzinə orqanizmə xeyirli olan təbii süfrə suyunun qəbul edilməsini məsləhət görür. Natriumla zəngin təbii süfrə suları təzyiqi aşağı olanlara müsbət təsir göstərir. Yuxarı təzyiqi olanlar isə ona limon əlavə edərək qəbul edə bilərlər. Həmin suların tərkibi kalium, maqnezium, natrium, kükürd və bir çox başqa elementlərlə zəngindir.

"Su qəbul etmək beyində hipoksiyanın, təzyiqin aşağı düşməsinin qarşısını alır və bir sıra müsbət təsirləri var. Adi qazlaşdırılmış sudan istifadə etmək qazlaşdırılmış şirəli sudan daha yaxşıdır", - deyə həkim-endokrinoloq bildirib.



Araşdırmalar nəticəsində məlum olub ki, şüşə qablarda olan mineral sular tərkibini itirmir. Belə şüşə qabların daha çox tünd rəngdə olması qazlı suyun tərkibini itirməsini minimuma endirir. Mütəxəssislər həmin mineral suların yalnız yeməkdən sonra həzm prosesini yaxşılaşdırmaq üçün istifadəsini tövsiyə edirlər.

# Oturaq iş rejiminin insana vurduğu ziyan

***"Oturaq iş rejiminin insan orqanizminə vurduğu fəsadlara toxunanda ilk növbədə metobolik sindromdan danışmaq lazımdır. Oturaq iş rejimi həmçinin şəkərli diabet, yüksək təzyiq kimi sağlamlıq problemlərinə gətirib çıxarır.***

Daimi olaraq oturaq iş rejimində çalışan insanların onurğa sütunu əyriliyi (skolioz) və xalq arasında boyun kirəclənməsi (duzlaşması) kimi tanınan osteoxondroz xəstəlikləri baş verir. Həmçinin, belə iş rejimində çalışan insanların mədə-bağırsaq sistemində müxtəlif problemlər yaranır. Bu şəxslərdə qəbzlik, babasil (hemorroid) kimi xəstəliklərə rast gəlinir. Həmin insanlarda xroniki yorğunluq, depressiyaya meyllilik digərləri ilə müqayisədə daha çox



müşahidə olunur".

Modern.az-ın məlumatına görə, bunu Kliniki Tibbi Mərkəzin həkim-terapevti Nuranə Əliyeva bildirib.

Onun sözlərinə görə, sadalanan problemlərin qarşısını almaq üçün ilk növbədə iş şəraitini dəyişmək mümkündürsə, dəyişdirilsin.

"Lakin əksər hallarda bu qeyri-mümkün olur. Ona görə də yaxşı olar ki, iş saatlarında hər saatbaşı 5-10 dəqiqəlik fasilə verilsin. Fasilə müddətində göz əzələlərini də məşq etdirmək lazımdır. İmkan daxilində yüngül idman hərəkətləri edin. Ən yaxşı üsullardan biri də gündəlik, müntəzəm olaraq idmanla məşğul olmaqdır. Çalışın ən azı 1 və ya 1.5 saat açıq havada gəzin. Bu baxımdan həm də qida rasionuna diqqət etməlisiniz. Gün ərzində hərəkət aktivliyi az olan insanlar mümkün qədər az və sağlam qidalanmalıdır", - həkim deyib.

# Hakimlərin maaşında fantastik artım

## Məhkəmələrdə rüşvətə son qoyulacaq? - SİYAHI



***"Konstitusiya Məhkəməsi haqqında" və "Məhkəmələr və hakimlər haqqında" qanunlara dəyişikliklərə əsasən, sentyabrın 1-dən hakimlərin maaşı 27% artacaq.***

Məhkəmələrdə gözlənilən artımla bağlı hesablama aparan hüquqşünas Əkrəm Həsənov deyib ki, Konstitusiya Məhkəməsi sədrinin maaşı 5544,06 manatdan 7026,02 manata, Ali Məhkəmə sədrinin aylıq məvacibi isə 5637,39 manatdan 7182,21 manata çatacaq.

Qanundakı faiz nisbətlərinə əsasən digər hakimlərin xalis rəsmi gəliri təxmini (staj və elmi dərəcə meyarlarına görə fərqlər ola bilər) belə olacaq:

1. Konstitusiya Məhkəməsi sədrinin müavini - 6323 manat;
2. Konstitusiya Məhkəməsinin hakimi - 5972 manat;
3. Ali Məhkəmə sədrinin müavini - 6463 manat, kollegiya sədrləri - 6104 manat, hakimləri - 5745 manat;
4. Apellyasiya məhkəmələrinin sədrləri - 6463 manat, müavinləri - 5816 manat, kollegiya sədrləri - 5493 manat, hakimləri - 5170 manat;
5. Ağır cinayətlər məhkəmələrinin, hərbi məhkəmələrin, inzibati məhkəmələrin və kommersiya məhkəmələrinin sədrləri - 5745 manat, müavinləri - 5170 manat, hakimləri - 4596 manat;
6. Digər məhkəmələrin sədrləri - 5027 manat, müavinləri - 4524 manat, hakimləri - 4021 manat.

Hüquqşünas xatırladıb ki, qanunvericiliyə əsasən hakimlərin imtiyazları da var. Məsələn:

- onların həyatı və sağlamlığı 5 illik əmək haqqı məbləğində sığorta edilir;
- pensiya yaşına çatmamış istefada olan Konstitusiya Məhkəməsinin hakimi pensiya yaşına çatana qədər fəaliyyətdə olan Konstitusiya Məhkəməsi hakiminin aylıq vəzifə maaşı məbləğində aylıq pul təminatı alır;
- ilk dəfə hakim vəzifəsinə təyin olunan şəxslərə hakimlik fəaliyyətinin birinci ilində bir dəfə aylıq vəzifə maaşının iki misli, sonrakı dörd il ərzində ildə bir dəfə bir aylıq vəzifə maaşı məbləğində birdəfəlik yardım ödənilir;
- təyin olunduğu yer üzrə mənzilə, həmçinin mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan hakimlər bu vəzifəyə təyin olunduğu gündən 6 ay müddətində mənzillə təmin edilir.

"Artım kifayət qədər ciddidir. Bu artım dövlət büdcəsi, yəni bizim hesabımıza baş verir. Buna görə də bütün məmurlar, o cümlədən hakimlər də bizə xidmət etməlidir. Dürüst və vicdanla! Korrupsiyaya bulaşmadan. Ümid edirəm ki, qismən də olsa belə olacaq",-deyə hüquşünas əlavə edib.

Nə qədər ümidlə danışsa da, Ə.Həsənov bütün hakimlərdən ədalət gözləmir:

"Artım yüksək olsa da, hakimlərimizin əksəriyyətinin gözünü doyduracaq qədər deyil. Bizdə hakim təxmini (iqtisadi şəraitə uyğun) ən azı 10000 manat almalıdır. Yüksək məhkəmə hakimləri isə 15000-20000 manat.

Digər tərəfdən də, şəffaflıq olmadığı üçün məmurlar, o cümlədən hakimlər üzərində ictimai nəzarətin həyata keçirilməsi mümkün deyil. Onlar gəlir və xərc bəyannamələri vermir, daşınmaz əmlak və kommersiya hüquqi şəxslərinin reyestrləri qapalıdır və s. İctimai nəzarətə məruz qalmayan məmurların çoxu həmişə korrupsiyaya meyilli olacaq".

Hüquqşünas hər bir halda vətəndaşların hakimlərdən haqqını daha inadla tələb etməli olduğunu vurğulayıb: "Onların maaşı artdıqca, biz də daha çox tələbkar olmalı, ədaləti "haqq" müqabilində əldə etməməliyik!".



# "Ödənişli yolda tərəzilər quraşdırılır" - Saleh Məmmədov

***Azərbaycanda tikilməkdə olan ilk ödənişli magistral avtomobil yolunda tikinti işləri yekunlaşmaq üzrədir.***

"Unikal" xəbər verir ki, bunu trend-ə açıqlamasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov deyib. O bildirib ki, ölkənin ilk ödənişli Bakı-Quba-Rusiya sərhəddi avtomobil yolunda hazırda tikinti işləri ilə paralel olaraq turniketlər quraşdırılır.

"Artıq tamamlanma işləri gedir. Hazırda son 27 kilometrlik hissənin asfaltlanması işləri aparılır. Yolun qalan hissəsinin asfaltlanması başa çatdırılıb. Yolun ödənişli olması üçün nəzarət buraxılış məntəqələri və turniketlər quraşdırılır. Həmçinin yollarda ağır tonluq yük maşınlarının çəkisinin müəyyənləşdirilməsi üçün tərəzilər quraşdırılır. Öhdəlik götürmüşük ki, ilin sonuna qədər işlər tam yekunlaşdırılacaq və yol istifadəyə veriləcək",-S. Məmmədov deyib.

# ASC subartezian quyularını bərpa edəcək

***Ağcabədidə 15 ədəd subartezian quyusu bərpa olunacaq. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Ağcabədi Suvarma Sistemləri İdarəsinin əsas fəaliyyəti idarənin balansında olan 2261 km suvarma kanalı, 2549 km kollektor drenaj şəbəkəsi, 4445 ədəd hidrotexniki qurğu, 53 ədəd elektrik nasos stansiyası, 1026 ədəd subartezian quyusu, 8 adad SNP markalı səyyar nasoslar, 2 ədəd üzən nasos, 3 ədəd inzibati və 16 ədəd yaşayış binasının istismarı və təmiri ilə məşğul olmaqla 63000 ha əkin sahələrini suvarma suyu ilə təmin etməkdən ibarətdir. İdarə tərəfindən suvarmanı yaxşılaşdırmaq üçün bir sıra təxirəsalınmaz işlər görülür. 2022-ci il ərzində əkilmiş kənd təsərrüfatı bitkiləri nasoslarla 13000 ha, öz axımı ilə 23291 ha, 26709 ha əkin sahəsi isə artezianlarla suvarılıb.***

İdarə tərəfindən cari ildə kollektor-drenaj şəbəkələrinin lildən təmizlənməsi, 134 ədəd subartezian quyularının cari təmiri və balansda olan nasos stansiyalarda təmir işləri aşağıdakı kimi aparılıb. Belə ki, Salmanbəyli-9 nasos stansiyasında bir, Xocavənd-1 nasos stansiyasında da bir ədəd elektrik mühərriki təmir olunub. Hazırda suvarmanın yaxşılaşdırılmasında daim işləyən nasos stansiyalar və subartezian quyuları fasiləsiz olaraq sahələrə xidmət göstərir. İdarə tərəfindən yeraltı suların aşağı səviyyəyə düşməsi nəticəsində batan subartezian quyularının da yenidən bərpası nəzərdə tutulur ki, artıq bu quyular plana uyğun olaraq bərpa olunacaq.

Qeyd edək ki, Ağcabədi rayonunda əsas su mənbəyi Yuxarı Qarabağ kanalı, Araz çayının qolu olan Xan qızı kanalı və subartezian quyularıdır.

***Hüseyn***

# Azərbaycanda "Media Araşdırmaları və Monitorinq Mərkəzi" yaradıldı

***2016-cı il 29 iyul tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış "Beynəlxalq İnformasiya və Regional Araşdırmalar" İctimai Birliyinin 27 iyul 2022-ci il tarixində növbəti ümumi yığıncağı baş tutub.***

"Unikal" xəbər verir ki, ümumi yığıncaqda idarə heyəti qərara alıb ki, təşkilatın adında və nizamnaməsində dəyişiklik edilsin.

Belə ki, "Beynəlxalq İnformasiya və Regional Araşdırmalar" İctimai Birliyinin idarə heyəti təşkilatın adında və nizamnaməsində dəyişiklik edərək, "Media Araşdırmaları və Monitorinq Mərkəzi" İctimai Birliyi adlandırılmasına qərar verib. Mərkəzin sədri ümumi yığıncağın yekdil səsverməsiylə Zaur Qəriboğlu seçilib.

Bundan sonra təşkilat dünyada və Azərbaycan mediasında ölkəmizlə bağlı müxtəlif mövzuları araşdıracaq və monitorinqini təşkil edəcək.

Dünyada Azərbaycana qarşı ikili standartların aradan qaldırılması isti-



qamətində, əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında öz töhvəsini verəcək. Yeni təşkilat nizamnamədən irəli gələrək ölkədə və xarici dövlətlərdə fəaliyyət göstərən qeyri -hökumət təşkilatları, beynəlxalq qurumlarla əlaqələr qurmağı, yeni layihələr həyata keçirməyi qarşısına məqsəd qoyub. Bununla əlaqədar təşkilat müxtəlif seminarlar, kurslar, dəyirmi masa və görüşlər təşkil etməyi də planlaşdırır.

Mərkəzin sədri Zaur Qəriboğlu bildirib ki, yeni yaranan təşkilat media araşdırmaları və monitorinqi sahəsində beyin mərkəzi kimi formalaşacaq.

"Beynəlxalq İnformasiya və Regional Araşdırmalar" İctimai Birliyi kimi qarşıya qoyulan məqsədlər üçün var gücü ilə çalışacaq. Əvvəlki adımızla da biz Azərbaycanın haqq səsini dünyaya çatdırmaq üçün kifayət qədər mühüm işlər görmüşdük. Xüsusi olaraq, "İrəvan-2018" Hərəkatı, və "İrəvan-2018" saytının yaradılmasını qeyd etmək istəyirəm.

Bundan sonra yeni yaradılan təşkilatla da bu istiqamətdə işlər aparacaq, media araşdırmaları, monitorinqlər həyata keçirəcəyik.

Qeyd edək ki, "Beynəlxalq İnformasiya və Regional Araşdırmalar" İctimai Birliyinin ümumi yığıncağının qərarı ilə adında və nizamnaməsində edilən dəyişikliklər 23 avqust 2022 - ci il tarixində Ədliyyə Nazirliyinin Dövlət notariat baş idarəsində Dövlət reyestrinə daxil edilmişdir.



## "Artıq müharibədə dönüş nöqtəsi başlayıb" - Budanov

***Müharibədə dönüş nöqtəsi artıq başlayıb.***

"Unikal" xəbər verir ki, bunu Ukrayna Müdafiə Nazirliyinin Kəşfiyyat Baş İdarəsinin rəisi, general-mayor Kirilo Budanov deyib.

"Ruslar başa düşməyə başladılar ki, onların ordusu o qədər də güclü deyil, hava hücumundan müdafiə sistemləri o qədər də yaxşı deyil və Rusiya ordusu əslində müvəqqəti olaraq işğal olunmuş Ukrayna ərazisini qorumağa qadir deyil", - hərbi kəşfiyyat rəhbəri deyib.

Onun sözlərinə görə, Rusiya ordusu "dünyanın heç ikinci, hətta dördüncü ordusu da deyil" və artıq hərbi əməliyyatlarda dönüş nöqtəsi başlayıb.

## Ermənistan ordusu kasıbların "monopoliyasına" çevrilir

***ABŞ-da 500 min dollardan çox qiymətə ev alan erməni məmurlar sevimli övladları üçün müvafiq məbləği ödəyərək Ermənistan ordusundan "kənarlaşdırırlar".***



"Unikal" xəbər verir ki, bu barədə hüquq müdafiəçisi Avetik İşxanyan "Facebook" səhifəsində yazıb.

"Ermənistan ordusu kasıbların monopoliyasına çevrilir. Vətənin sərhədlərinin qorunmasını kasıb ailələrə tapşırırsınız.Hamımıza ayıb olsun", - deyə o, şərh edib.

*Gülayə*

## Yaponiya polisinin rəhbəri Abenin qətlinə görə istefa verdi

***Yaponiya Milli Polisinin rəhbəri İtaru Nakamura keçmiş baş nazir Şinzo Abenin öldürülməsi zamanı təhlükəsizliklə bağlı buraxılmış pozuntulara görə məsuliyyəti öz üzərinə götürərək istefa verdiyini açıqlayıb.***



"Unikal" xəbər verir ki, bu barədə "The Japan Times" nəşri məlumat yayıb.

Bildirilir ki, o, artıq istefa ərizəsini Milli İctimai Təhlükəsizlik Komissiyasına təqdim edib.

# Ermənistan XİN Rusiya səfirliyinin notasına cavab verdi

***Ermənistan Xarici İşlər Nazirliyi Rusiya səfirliyinin notasına müəyyən olunmuş qaydada cavab verib.***



"Unikal" xəbər verir ki, bu barədə Xarici işlər nazirinin sözçüsü Vaan Hunanyan məlumat yayıb.

"Notanın məzmunu daxili diplomatik qeydlərin bir hissəsidir, ona görə də biz onun dərcini düzgün hesab etmirik", - Vahan Hunanyan bildirib.

Xatırladaq ki, avqustun 17-də Rusiyanın Ermənistandakı səfirliyi yerli informasiya domenində Rusiyaya qarşı anti-Rusiya xarakterli saxta ittihamlarla bağlı Ermənistan Xarici İşlər Nazirliyinə nota verib.

# "Rusiyanın parçalanması mərhələsindəyik" - Viktor Yuşşenko

***Rusiya Federasiyasının terrorçu dövlətinin parçalanmasının vaxtı çatıb. Axı əsarətdə olan ölkələrdə milli ruh, əxlaqsızlıq həvəsi artır.***

"Unikal" xəbər verir ki, bunu Ukraynanın üçüncü prezidenti Viktor Yuşşenko "Ukrayna Pravda"ya müsahibəsində bildirib.

"Biz Rusiyanın dağılması mərhələsindəyik. Rusiyanın dağılmasına imkan verməməli olduğumuzu bəyan edən çox düşünülməmiş, pis siyasətdir. Bilirsiniz, gec-tez bu imperiya süqut etməlidir. Çünki belə bir ərazi ölçüsündə dövlətin formalaşmasının yeganə yolu demokratik yoldur. Bu Amerika nümunəsidir, bu İsveçrənin nümunəsidir, şəffaf tarazlığı saxlamaq üçün müxtəlif şeylərin necə bir-birinə yapışdığının nümunəsidir. Rusiya heç vaxt bu yolla getməyəcək. O, imperializmə, "avtokrat, kilsə və millət" üçlüyünün tətbiqinə - 200-250 il ərzində Rusiya sisteminin əsas nəzəriyyəsi olan üç postulatın tətbiqinə lağ edir", - Yuşşenko deyib.

*Gülayə Mecid*



# Kim Çen In sui-qəsdlərin qarşısını almaq üçün malikanə tikdirir

***Şimali Koreya lideri Kim Çen In ona qarşı mümkün sui-qəsdlərin qarşısını almaq üçün hərəkətə keçib.***

"Unikal" xəbər verir ki, əvvəllər zəhərlənmə qorxusu ilə bağlı bir çox xəbərləri olan Çen In yaşadığı ev aşkarlanmamaq üçün öz evinə bənzər daha 8 malikanə tikdirib.

Şimali Koreyanın Liderlik Nəzarət Təşkilatının son hesabatında, Pxenyanın mərkəzində gizli mülk olan "Ch'angkwangsan" Kampusunda səkkiz yeni lüks evin tikildiyini açıqlanıb.



Bununla yanaşı, Kim Çen Inın ölüm qorxusundan oxşar avtomobillərlə uzun konvoylarda səyahət edib və onun üçün yerin altında sığınacaq tikdirib.

Məlumata görə, Kim Çen Inın ölkə daxilində 13 müxtəlif iqamətgahı var.

*Gülayə Mecid*

# Şoyqu və fransalı həmkarı Zaparojye AES-i müzakirə etdi

***Fransanın müdafiə naziri Sebastyan Lekornu rusiyalı həmkarı Sergey Şoyquya zəng edib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyindən məlumat verilib.

Hərbi idarənin məlumatına görə, telefon danışığı çərçivəsində Şoyqu və Lekornu Zaporojye atom elektrik stansiyası ətrafındakı vəziyyəti müzakirə ediblər. Rusiya Müdafiə Nazirliyinin rəhbəri Ukrayna Silahlı Qüvvələrinin stansiyanın təhlükəsiz istismarını poza biləcək hərəkətlərindən danışıb.

*Ağarza Elçinoğlu*



# "Makron və Şolts Ukraynadakı sülhə narazıdırlar" - KİV

***Fransa prezidenti Emmanuel Makron və Almaniya kansleri Olaf Şolts Ukraynada nizamlanmaya görə Aİ-dəki ölkələrə qarşıdırlar.***

"Unikal" xəbər verir ki, bu barədə "Politico" nəşri məlumat yayıb.

"Makron və Şolts öz mövqelərini Mərkəzi və Şərqi Avropa ölkələrindən gizlətməlidirlər, bu da münaqişəni diplomatiya yolu ilə mümkün qədər tez bitirməkdir. ABŞ-ın Ukraynadakı hərbi əməliyyatlara dəstəyi davam etdiyi halda, Berlin və Paris Avropa İttifaqı daxilində birliyin qorunması maraqları naminə öz fikirlərini açıq şəkildə ifadə etməyəcəklər. Bundan əvvəl Makron Rusiya ilə güzəştə getməməyə və zəiflik nümayiş etdirməməyə çağırıb", - deyə nəşr qeyd edib.

Fevralın 24-də Rusiya prezidenti Vladimir Putin LXR və DXR rəhbərlərinin yardım xahişinə cavab olaraq Donbası qorumaq üçün hərbi xüsusi əməliyyat keçirmək qərarına gəldiyini açıqlayıb. Əməliyyatın keçirilməsi qərarı ABŞ və müttəfiqlərinin Rusiyaya qarşı yeni sanksiyalarının səbəbi olub.

# Şəhidlərin xatirəsinə həsr olunmuş çempionatlar

## Turnir başa çatdı




***Masallı rayon Gənclər və İdman İdarəsinin, AFFA, Azad Futbol klubunun təşkilatçılığı və Bioloji Təbabət Klinikasının baş sponsorluğu sayəsində "Şəhidlər ölməz, Vətən bölünməz - 2022" adlı mini-futbol turnirinin final oyunu keçirildi. Şəhid ailələri, müharibə veteranları, veteran futbolçuları, AFFA nümayəndələri, eləcə rayon ictimaiyyəti iştirak etdiyi oyunda əvvəlcə Vətən yolunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı və Dövlət Himni oxundu. Rayonun Viləş Mini stadionunda baş tutan final oyuna "Ərkivan" futbolçuları ilə "Şassi" komandası yaşıl meydançaya çıxdılar.***

Gərgin idman mübarizəsi şəraitində keçən oyunun hər iki hissəndə tabloya yazılan rəqəmlər "1-1" oldu. Əlavə vaxt təyin edildi. Əlavə vaxtda da hesab dəyişmədi. 7 metrlik cərimə zərbəsi vuruldu, "Şassi" komandası "Ərkivan" komandasını məğlub edərək turnirin qalibi oldu. Beləliklə çempion "Şassi" komandası birinci yer üçün ayrılmış 2000 manat pul mükafatını qazandı. Turnirin ikincisi "Ərkivan" komandasına 1000 manat verildi. Üçüncü mükafat isə "Göytəpə " komandasının oldu. Həm də qalib komandalara yarışda tutduqları yerlərə görə diplom və mükafatlar verildi.

Məlumat üçün bildirək ki, 12 komandanın iştirak etdi, 47 gün çəkən turnir final mərhələsi ilə başa çatdı. Oyunları AFFA tərəfindən rəsmi təyin olunmuş milli dərəcəli hakimləri Rəşad Aydınov və Xalid Quliyev idarə etdilər.

### "Əvilə" futbolçuların qələbəsi

Lerik Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı, eləcə Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lerik nümayəndəliyini tərəfdaşlığı ilə şəhidlərin əziz xatirəsinə həsr olunan, 300-ə yaxın həvəskar idmançının iştirak etdiyi futbol üzrə Lerik rayon çempionatı "Əvilə" və "Cəngəmiran" komandaları arasında final qarşılaşmasıla yekunlaşdı.

Maraqlı və gərgin keçən oyunda "Əvilə" komandası rəqibinə 2-1 hesabı ilə üstün gələrək çempion oldu.

Final oyuna baxmağa qazi və şəhid ailələri və Lerik Rayon İcra Hakimiyyətinin başçısının müavini Habil Məlikov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyi Lerik rayon filialının sədri Veysəl Məlikov, rayon Ağsaqqallar Şurasının sədri Elxan Qəmbərov da gəlmişdi.



Qonaqlar iştirakçıların idmana göstərdiyi marağa və Vətən şəhidlərin əziz xatirəsinə duyduğu ehtiram hissini təqdir edib, qalibləri təltif etdilər. Onu da qeyd edək ki, final oyununda hər iki komandanın tərkibində Vətən müharibəsi iştirakçıları vardı.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Daha üç bölgədə yeni ağır atletika idman zalları istifadəyə verildi

***Respublikada ağır atletika idman növünün maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində kompleks tədbirlər davam etdirilir. Bu günlərdə İsmayıllı, Qax və Balakən rayonlarında yeni ağır atletika idman zalları istifadəyə verilib.***



"Unikal" xəbər verir ki, "Girdiman", "Kürmük" və "BAF" ağır atletika klublarının məşq zalları yüksək standartlara uyğun avadanlıqlarla təchiz olunub. Zövqlə dizayn edilmiş zallarda körpücüklər, məşq üçün dəstlər, fiziki hazırlığı yüksək səviyyədə saxlamaq üçün avadanlıqlar yerləşdirilib. Yeni idman zallarda isti döşəmə və havalandırma sistemləri qurulub, paltardəyişmə, duş kabinaları, sauna otaqları, məşqçilərin iş otaqları yaradılıb, idmançıların istirahəti və bərpa prosesi üçün hər cür şərait formalaşdırılıb.

Bölgələrdə ən müasir standartlara cavab verən ağır atletika zallarının istifadəyə verilməsi bu idman növünün gənclər arasında populyarlaşmasını təmin edir. Maddi texniki bazanın yaxşılaşdırılması artıq ağır atletika ilə məşğul olmaq istəyənlərin sayının artmasına səbəb olub. Yeni idman zallarında təcrübəli məşqçilərin rəhbərliyi altında müxtəlif yaş qrupları üzrə sistemli məşqlər keçirilir. Bölgələrdə yeni idman zallarının açılması ağır atletlərin müxtəlif səviyyəli yarışlara, o cümlədən beynəlxalq turnirlərə hazırlığını təşkil etməyə, o cümlədən yığma komandaların təlim məşq toplanışlarının daha yaxşı təşkil olunmasına imkan verəcək.



# "Qarabağ" Avroliqada bu səbətdə yer alacaq - 8 potensial rəqib

***"Qarabağ"ın Avropa Liqasının qrup mərhələsinin püşkatması zamanı səbəti müəyyənləşib.***

Ağdam təmsilçisi 2-ci səbətdə yer alacaq. Buna reytinqdə "Qarabağ"dan üstün olan "Kopenhagen" (Danimarka) və "Dinamo" Zaqrebin (Xorvatiya) ÇL-in qrupuna düşməsi səbəb olub. Onların mübarizədən kənarlaşdırdığı "Trabzonspor" (Türkiyə) və "Büdo Qlimt"in (Norveç) Ağdam təmsilçindən reytinqdə geridə olması "Qarabağ"ın 2-ci səbətdəki yerini dəqiqləşdirib.

Hələlik 2-ci səbətdə "Qarabağ"la yanaşı "Renn" (Fransa), PSV (Niderland), "Monako" (Fransa), "Real Sosyedad"ın (İspaniya) da yer alacağı dəqiqləşib. Bu səbətin digər klubları AL-in bugünkü pley-off matçlarından sonra müəyyənləşəcək. 2-ci səbətdən heç bir klub "Qarabağ"a rəqib olmayacaq.

1-ci səbətin tərkibi isə belədir: "Roma" (İtaliya), "Mançester Yunayted" (İngiltərə), "Arsenal" (İngiltərə), "Latsio" (İtaliya), "Braqa" (Portuqaliya), "Srvena Zvezda" (Serbiya), "Dinamo" (Ukrayna). Sonuncu 8-ci iştirakçı "Feyenoord" (Niderland) və ya qrupa düşəcəyi halda "Olimpiakos" (Yunanıstan) ola bilər. Bu komandalardan biri "Qarabağ"a rəqib olacaq.

Qeyd edək ki, qrup mərhələsinin püşkü avqustun 26-da atılacaq. Mərasim Bakı vaxtı ilə saat 15:00-da başlanacaq.

Püşkatmada 32 komanda iştirak edəcək ki, onlardan 22-si artıq müəyyənləşib:

"Roma" (İtaliya)
"Mançester Yunayted" (İngiltərə)
"Arsenal" (İngiltərə)
"Latsio" (İtaliya)
"Braqa" (Portuqaliya)
"Feyenoord" (Niderland)
"Renn" (Fransa)
"Real Sosyedad" (İspaniya)
"Betis" (İspaniya)
"Union" (Almaniya)
"Frayburq" (Almaniya)
"Nant" (Fransa)
"Monako" (Fransa)
"Şturm" (Avstriya)
"Yunion" (Belçika)
"Mityülland" (Danimarka)
"Srvena Zvezda" (Serbiya)
"Dinamo" (Kiyev, Ukrayna)
"Qarabağ" (Azərbaycan)
"Trabzonspor" (Türkiyə)
"Büdo Qlimt" (Norveç)
"PSV Eyndhoven" (Niderland)

Qrupun son 10 iştirakçısının adına AL-in pley-off mərhələsinin bugünkü cavab oyunlarından sonra aydınlıq gələcək.

# Futbolçu 70 metrdən qol vurdu

***Argentina futbol çempionatının 15-ci turu çərçivəsində futbolçu Mateo Koronel möhtəşəm qola imza atıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, "Atletiko Tucuman" və "Barrakas Sentral"ın qarşılaşdığı oyun meydan sahiblərinin 4:0 hesablı qələbəsi ilə başa çatıb.

Futbolçu Mateo Koronel isə oyunun 93-cü dəqiqəsində 70 metrdən rəqib qapısına vurduğu qolla yadda qalıb.

***Ağarza***

# Cüdoçumuz dünya çempionatında gümüş medal qazanıb

***Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda yeniyetmələr arasında dünya çempionatı davam edir.***

"Unikal" xəbər verir ki, Azərbaycan komandasının üzvü Şahin Oruczadə (55 kq) uğurla çıxış edərək finala yüksəlib.

Qızıl medal uğrunda fransalı idmançı Dicol Zaçariyeyə məğlub olan cüdoçumuz yarışı gümüş medalla başa vurub. Digər cüdoçumuz Məhəmməd Məmişov (50 kq) turniri 5-ci yerdə tamamlayıb.

Qeyd edək ki, cüdoçularımız avqustun 24-27-də fərdi, 28-də isə komanda yarışında iştirak edəcəklər.